www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 noyabr 2018-ci il Çərşənbə axşamı № 241 (7130) Qiymәti 60 qəpik

**Xəbər**

## Şabranda dəhşət - "cinçıxarma" adı ilə gənci döyüb öldürdülər

yazısı səh.2-də

# PAŞİNYAN PARİSDƏN BAKI VƏ ANKARAYA "DİL" UZATDI - CAVAB GECİKMƏDİ

İrəvanın bitməyən ikinci dövlət xülyası, saxta "soyqırım" röyası, Qarabağ iniltisi; düşmən müharibəni günbəgün yaxınlaşdırır; ermənilərin xoşbəxtliyi Rusiyaya və Qərbə yox, ilk növbədə Türkiyə və Azərbaycana bağlıdır...




yazısı səh.8-də

## İngiltərə müstəntiqləri Cahangir Hacıyevi dindirə bilər - "Beynəlxalq Bank işi" böyüyür

Əkrəm Həsənov: "Azərbaycan tərəfi deyə bilər ki, gəlin bu məsələni tam araşdıraq; qarşı tərəf bundan imtina etsə, bu, əlbəttə ki, bütövlükdə Britaniyada aparılan istintaqın obyektivliyini şübhə altına alacaq"

yazısı səh.4-də

**Gündəm**

### Ermənistanın Astana məğlubiyyəti - Azərbaycan üçün şans pəncərəsi



İşğalçı ölkənin "Rus NATO-su" rəhbərliyindən "nakam" uzaqlaşması İrəvanda əsas müzakirə mövzusudur

yazısı səh.11-də

### DİN-dən sosial şəbəkələrdə saxta səhifə yaradanlara xəbərdarlıq

yazısı səh.3-də

### Bayrağımızın üç rənginin ideoloqu kimdir?

yazısı səh.6-da

### Zakir Həsənov deputatlara medal verdi, Zahid Oruc nazirə təşəkkür etdi

yazısı səh.5-də

### Növbəti müharibəyə hazırlaşan liderlərin 100 illik sülh qutlaması...

yazısı səh.9-da

### Meydan hərəkatı liderləri 30 il sonra bir yerə toplanır

yazısı səh.5-də

### Niyə London - Avropanın maliyyə mərkəzini cəlbedici edən amillər

yazısı səh.7-də

### Azərbaycan fotoqrafları ilə ingilis həmkarlarının fərqi...

yazısı səh.15-də

### Paşinyana KTMT xəbərdarlığı - Moskvada onu böyük imtahan gözləyir

yazısı səh.9-da

### Yumurta qıtlığının səbəbləri

yazısı səh.12-də

### İran sanksiyaları: kim daha çox itirir?

yazısı səh.13-də

### Plastik əməliyyatlar - ziyanı faydasından daha çoxdur

yazısı səh.15-də



*Fazil Mustafa:*

### "Uşaqlara sağlam inkişafları üçün aylıq müavinət verilməlidir"

yazısı səh.10-da



### Trampdan dünyaya pis nümunə

yazısı səh.14-də



*Əli Həsənov:*

### "Azərbaycan Yaxın Şərqdə sabitliyin bərqərar olunması naminə çıxış yolları təqdim edib"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018



## Prezident Azərbaycanın İsveç, Norveç və Finlandiyadakı səfirini geri çağırdı

**Prezident İlham Əliyev A.S.Məmmədovun Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqda sərəncam imzalayıb.**

Prezidentin sərəncamında deyilir:

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

## Ukraynada erməni azərbaycanlını etnik zəmində güllələbaran edərək öldürdü

**Ukraynanın Kirovoqrad vilayətinin Kropivnitskiy şəhərində Ermənistan vətəndaşı, 1980-ci il təvəllüdlü Boqdasaryan Aznavur Eduardoviç avtomat silahla Azərbaycan vətəndaşı, 1972-ci il təvəllüdlü Əsgərov Əlövsət Cabir oğlunu güllələbaran edərək öldürüb.**

"Report"un Ukrayna bürosuna yerli polisdən verilən məlumata görə, tərəflər arasında yaranan mübahisə sonda etnik zəminə keçib.

Ə. Əsgərov Boqdasaryanın etnik zəmində təhqirlərinə dözməyərək ona zərbələr endirib. Buna cavab olaraq Ermənistan vətəndaşı avtomobilindəki avtomat silaha əl ataraq açdığı atəş nəticəsində silahın darağındakı bütün güllələri həmyerlimizin bədəninə boşaldıb. Hadisəni törədən A. Boqdasaryan hadisə yerindən qaçıb, polis onu axtarır.

## Bakı sakini binanın girişində güllələnib



**Bakıda silahlı insident olub. "Report"un məlumatına görə, hadisə paytaxtın Nəsimi rayonu, M.Qardaşları küçəsi 119 ünvanından yerləşən məcburi köçkünlərin məskunlaşdığı binada baş verib. Orada yaşayan Elnur Əliyev binanın girişindəki pilləkən qəfəsində odlu silahdan atəş açaraq Namiq Nəcəfovu güllələyib. Yaralı dərhal xəstəxanaya yerləşdirilib.**

Hadisə törədən E.Əliyev şübhəli şəxs qismində tutularaq barəsində həbs-qətimkan tədbiri seçilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 29.120.1-ci (qəsdən adam öldürməyə cəhd), 228.1-ci (qanunsuz odlu silah saxlama), 229.1-ci (qanunsuz olaraq silah hazırlama) maddələri ilə cinayət işi başlanıb.

Araşdırmalarla müəyyən edilib ki, E.Əliyev N.Nəcəfovu aralarında olan qərəzli münasibətlərlə əlaqədar qisas məqsədi ilə öldürmək istəyib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Azərbaycan Yaxın Şərqdə sabitliyin bərqərar olunması naminə çıxış yolları təqdim edib" - Əli Həsənov



**Ərəb ölkələrinin aparıcı KİV-ləri, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin "Nəbz", "İmarat nyus", "Şarcə24", Misirin "İdaat" saytları, Oman Xəbər Agentliyi, Səudiyyə Xəbər Agentliyi, Səudiyyə Ərəbistanının İƏT UNA agentliyi və digər xəbər portalları bu ölkələrin media nümayəndələrinin Azərbaycana səfərini və səfər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşünü geniş işıqlandırıb.**

Misirin "İdaat" saytı səfər zamanı Əli Həsənovdan alınan müsahibəni yayıb. Müsahibədə Əli Həsənov Azərbaycanın ərəb ölkələri, eləcə də Misir və Səudiyyə Ərəbistanı ilə yaxşı əlaqələrinin olduğunu bildirib. O vurğulayıb ki, Azərbaycan ortaq dini, mədəni və tarixi köklərlə bağlı olduğu ərəb-İslam ölkələri ilə əlaqələri inkişaf etdirməyə önəm verir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə cərəyan edən prosesləri yaxından izləyir və bəzi üzv ölkələrin üzləşdikləri münaqişələrin, xüsusilə də Fələstin probleminin, Suriya böhranının tezliklə həllinə ümid bəsləyir. Azərbaycan İslam ölkələri ilə iqtisadiyyat, mədəniyyət, idman sahələrində əməkdaşlığı genişləndirmək istəyir. İslam Əməkdaşlıq Təşkilatının bütün tədbirlərində iştirak etməkdə maraqlı olan ölkəmiz BMT-də bir sıra diplomatik təşəbbüslər irəli sürüb, Təhlükəsizlik Şurasına sədrliyi dövründə Suriyada hərbi əməliyyatların dayandırılması və Yaxın Şərqdə sabitliyin bərqərar olunması naminə çıxış yolları təqdim edib. Ərəb-İslam ölkələri ilə turizm sahəsində də sıx əməkdaşlıq etmək istəyən Azərbaycan bu ölkələrdən gələn turistlər, eləcə də sərmayədarlar üçün açıqdır. Azərbaycan, öz növbəsində, ərəb-İslam ölkələrinə də sərmayələr yatırıb.

Azərbaycan Prezidentinin köməkçisi ötən il Səudiyyə Ərəbistanında keçirilmiş "əl-Cənadəriyyə" Mədəniyyət və İrs Festivalında iştirak etdiyini, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudla, Küveyt Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahla və Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə ilə görüşdüyünü, həmçinin İslam Əməkdaşlıq Təşkilatının mənzil-qərargahında olduğunu xatırladıb. Əli Həsənov Azərbaycanla İslam ölkələri arasında əməkdaşlığın dəstəklənməsi məqsədilə Misir, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə səfər etdiyini də diqqətə çatdırıb. Prezidentin köməkçisi Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının fəaliyyətini dəstəklədiyini qeyd edib.

Müsahibəsində Əli Həsənov ölkəmizdəki tolerant və multikultural mühit barədə ətraflı məlumat verib. Bildirib ki, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Azərbaycanda etnik, dini və ya irqi zəmində heç bir münaqişə baş verməyib. Azərbaycan dünyaya tolerantlıq nümunəsi təqdim edə bilib. Ölkəmizdə məscidlərlə yanaşı, kilsələr və sinaqoqlar da fəaliyyət göstərir.

Prezidentin köməkçisi, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub, Azərbaycanda insan kapitalına sərmayə qoyulmasından, elmə, təhsilə, mədəniyyətə göstərilən diqqət və qayğıdan bəhs edib. (AzərTAc)

# Şabranda dəhşət - "cinçıxarma" adı ilə gənci döyüb öldürdülər

**DİN mətbuat xidmətinin Quba regional qrupundan musavat.com-a verilən məlumata görə, noyabr ayının 10-da gecə saatlarında Şabran şəhərindəki kirayədə yaşadığı evdə Bakı şəhər sakini, 25 yaşlı Murad Soltanovun üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb.**



Polis və prokurorluq orqanları əməkdaşlarının keçirdikləri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin altı nəfər tərəfindən törədildiyi müəyyən edilib. Araşdırmalarla onların Şabran şəhər sakinləri Vüsal İbrahimov, Əfqan Tanrıverdiyev, Cəmil Qayıbov, Sahib Xəlilov, Aprel Xəlilov və Füzuli Qəribov olduqları müəyyənləşdirilib və onlar şübhəli şəxslər qismində saxlanılaraq RPŞ-yə gətiriliblər.

İlkin təhqiqat zamanı saxlanılanlar törətdikləri cinayət əməllərini etiraf ediblər. Həmin şəxslərin evdə M.Soltanovu guya xalq təbabətindən istifadə olunmaqla müxtəlif formada müalicə etdikləri, bədənindən şər qüvvələri çıxarmaq adı ilə nar ağacının çubuqları ilə vuraraq ona ağır bədən xəsarətləri yetirdikləri, məhz bundan sonra sonuncunun kirayədə qaldığı mənzildə dünyasını dəyişdiyi məlum olub. Araşdırmalarla M.Soltanovun Bakı şəhərində əvvəllər də eyni üsulla guya müalicə aldığı, lakin sonuncu belə "seans" zamanı sağlamlıq durumunun qəfil pisləşdiyi müəyyən edilib.

Eyni zamanda keçirilən tədbirlərlə, Vüsal İbrahimovun yaşadığı evə baxış zamanı oradan 1 ədəd qanunsuz olaraq saxladığı "Toz-8" markalı tüfəng aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 126.3 (iki və ya daha çox şəxsə qarşı, habelə təkrar və ya bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilən qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 138.2-1-ci (Tətbiqi müəyyən olunmuş qaydada qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə ehtiyatsızlıqdan şəxsin ölümünə və ya sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda) maddələri ilə cinayət işi başlanılıb, istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

❑ Musavat.com

## Yaşar İsakov DTX-də xidmətə qəbul edilib - vəzifəsi açıqlandı



**Tanınmış jurnalist Yaşar İsakov Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsinin rəis müavini təyin olunub.**

Bu barədə DTX-nin İctimai əlaqələr şöbəsindən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib: "Yaşar İsakov Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevin əmrinə əsasən, qurumun İctimai Əlaqələr şöbəsinin rəisinin müavini təyin edilib".

Qeyd edək ki, DTX-nin İctimai əlaqələr şöbəsinin rəisi Arif Babayevdir. İki gün əvvəl Y.İsakovun DTX-də xidmətə qəbul olunduğu və məsul vəzifəyə təyin edildiyi məlum olsa da, söhbətin hansı vəzifədən getdiyi açıqlanmamışdı.

Y. İsakov bu təyinatadək Bakı Beynəlxalq Avtovağzalının mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb. Ondan əvvəl isə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin mətbuat xidmətinin rəhbəri vəzifəsində işləyib.

Y.İsakov daha əvvəllər "Press24.az" saytının, "Birja plyus", "Yejenedelnik" qəzetlərinin, "Bona Mente" jurnalının, "News24.az" saytının baş redaktoru olub, məqalələri "Day.az", "1News.az", "Aznews.az" saytlarında, "Exo" və "Naş vek" qəzetlərində dərc olunub.

Xatırladaq ki, Y. İsakov keçmiş polis zabitidir. Uzun illər Daxili İşlər Nazirliyinin Polis Akademiyasında fəlsəfə, politologiya və sosiologiya fənlərini tədris edib.

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

# "Müharibənin olmaması üçün Paşinyan addımlar atmalıdır"

**"Nikol Paşinyan hələ ki Qarabağ münaqişəsinin həllinə maraq göstərmir. Əksinə, o, Qarabağa tez-tez gəlir və separatçılara dəstək verir. Bu da təbii ki, Azərbaycanda narahatlıq yaranır".**

## Politoloq: "Ermənistanın erməniləri bu rayonlara köçürməsi o deməkdir ki, İrəvan bu əraziləri azad etməyə hazır deyil"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bu fikirləri Ermənistanın baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın Qarabağla bağlı mövqeyini "Yeni Müsavat"a şərh edərkən söylədi. Qeyd edək ki, Paşinyan Paris Sülh Forumundakı çıxışı rəsmi Bakıda etiraz doğurub və erməni baş nazirə sərt reaksiya verilib. Azərbaycan XİN bəyan edib ki, Paşinyanın çıxışı Ermənistan Respublikasının xarici siyasəti ilə tamamilə ziddiyyət təşkil edir və bunu o özü də anlayır.



Elxan Şahinoğlu

**E.Şahinoğlu İrəvanın təxribatçı addımlarının davamlı xarakter daşımasında da diqqət çəkdi:** "Ermənistan işğal altındakı rayonlara - Şuşa, Laçın və Kəlbəcərə erməniləri köçürür. Ermənistan bütün həll planlarına görə bu rayonları azad etməlidir. Ancaq Ermənistanın bu rayonlara erməniləri köçürməsi o deməkdir ki, İrəvan bu əraziləri azad etməyə hazır deyil. Nikol Paşinyan müharibə istəmir. Bu, aydındır. Ancaq müharibənin olmaması üçün Paşinyan addımlar atmalıdır".

**Ekspertin fikrincə, məsələn, Paşinyan Dağlıq Qarabağda girov saxlanılan iki azərbaycanlını azad edə bilərdi:** "Paşinyan bunu etsə, müharibə riskini azaltmış olar. Azərbaycanda da erməni əsirlər var. Onlar sərhədi keçərkən həbs olunublar. Azərbaycan bütün əsirləri dəyişməyə hazırdır. Ancaq Ermənistan buna razılaşmır. Maraqlıdır ki, Ermənistan öz əsirləri ilə maraqlanmır, onları azad etməyə çalışmır. Halbuki Azərbaycan Dağlıq Qarabağda saxlanılan bütün əsirlərini azad etmək üçün fəal siyasət həyata keçirir. Aydındır ki, parlament seçkisinə hazırlaşan Nikol Paşinyan girovları dəyişməyəcək. Çünki Paşinyan düşünür ki, bu, onun reytinqinə mənfi təsir edər. Amma hər halda, parlament seçkilərindən sonra Paşinyan parlamentdə böyük səs çoxluğu qazanacaq. Bundan sonra Paşinyan girovların dəyişdirilməsi məsələsini həll edə bilər".

**E.Şahinoğlu qeyd etdi ki, bu arada, Paşinyan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından zərbə aldı:** "Ermənistan bu təşkilatın üzvüdür. Təşkilatın baş katibi erməni general Xaçaturovdur. Nikol Paşinyan Xaçaturovu həbs etmək istəyir. Çünki Xaçaturov 2008-ci ilin mart ayında baş verən hadisələrdə günahlandırılır. 2008-ci ilin mart ayında İrəvanda hərbçilər insanlara atəş açmışdılar. Nikol Paşinyan Xaçaturovu geri çağırıb onun yerinə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına başqa erməni generalı göndərmək istəyir. Ancaq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan dövlətlərin liderləri Paşinyanla razı deyillər. Noyabrın 8-də Astanada təşkilatın toplantısı keçirildi. Qazaxıstan prezidenti Nursultan Nazarbayev toplantıda dedi ki, onlar Xaçaturovun əvəzinə təşkilata Belarus nümayəndəsinin baş katib seçilməsini istəyirlər. Çünki əlifba sırasına görə Ermənistandan sonra Belarus nümayəndəsi baş katib olmalıdır. Halbuki Ermənistanın baş katiblikdə müddətinin bitməsinə hələ 1 il var. Buna baxmayaraq, digər dövlətlər Paşinyanın bir başqa erməni hərbçisini təşkilata baş katib göndərməsini istəmirlər. Nazarbayev dedi ki, təşkilata işlək baş katib lazımdır".

**Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında iştirakı barədə müzakirələrə gəldikdə, politoloq dedi ki, buna lüzum yoxdur:** "Üzvlüyün və müşahidəçiliyin xeyri bizə nə verəcək - suali açıq qalır. Bu təşkilata üzv olacaqdısa, Qoşulmayanlar Hərəkatına niyə üzv olurduq?"

Qeyd edək ki, Ermənistan mediasında Azərbaycanın KTMT-yə üzvlüyünə İrəvanın, konkret olaraq Paşinyanın "veto qoyduğu" barədə gülünc iddialar yer almaqdadır.

❑ **Cavid TURAN, "Yeni Müsavat"**




## DİN-dən sosial şəbəkələrdə saxta səhifə yaradanlara xəbərdarlıq

**Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə saxta səhifə yaradanlara xəbərdarlıq edib.**

Qurumdan musavat.com-a verilən məlumata görə, son günlər DİN-in adından və loqotipindən istifadə etməklə sosial şəbəkələrdə icazəsiz və saxta səhifə, kanal, profillər yaradan, işlədən şəxslərin sayı artmaqdadır. Belə profillərin yaradılması, işlədilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır:

"Həmin səhifə və profillərdə polisin fəaliyyətinə dair təhrif olunmuş yanlış məlumatlar yerləşdirilir, vətəndaşlar tərəfindən ünvanlanmış suallara səhv cavablar yazılır.

Ona görə də sosial şəbəkə izləyicilərinə saxta səhifə və profillərdən istifadə etməməyi tövsiyə edirik.

Məlumat üçün bir daha xatırlatmaq yerinə düşərdi ki, ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin daha da yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə yaradılmış rəsmi səhifələri artıq 2 ilə yaxındır ki, fəaliyyət göstərir".

Vətəndaşlar DİN-in rəsmi www.mia.gov.az saytından "facebook", "instagram ", "twitter" və "youtube" hesablarına keçid işarə düymələrindən istifadə ilə, yaxud aşağıdakı linklər vasitəsi ilə həmin səhifələrə daxil ola və abunə yazılmaqla məlumatları əldə edə bilərlər:

"Facebook - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
keçid linki (https://www.facebook.com/mia.gov.az/)
İnstagram - azerbaycan.din
keçid linki - (https://www.instagram.com/azerbaycan.din/)
Youtube - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
keçid linki - (https://www.youtube.com/channel/UC-nOFIn-vwFvkLMCMGyg2j-w?view_as=subscriber)
Twitter - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (https://twitter.com/MIAAzerbaijan )"

# Hüseyn Abdullayev gələn ilin əvvəlində hakim qarşısına çıxarılacaq

## Sabiq deputatla iş birliyində olduğu iddia edilən bəzi vəzifə sahiblərinin sorğulandığı haqda bilgilər var

**Bu ilin əvvəlində Türkiyədə saxlanılaraq Azərbaycana təhvil verilən sabiq deputat Hüseyn Abdullayevlə bağlı istintaq araşdırmaları davam edir. Sabiq deputatın cinayət işi üzrə materialların gələn ilin əvvəlində məhkəməyə göndəriləcəyi haqda məlumatlar yayılıb. Bildirilir ki, istintaq ilin sonuna qədər yekunlaşacaq və gəlin ilin əvvəlində Hüseyn Abdullayev hakim qarşısına çıxarılacaq. Bu arada Hüseyn Abdullayevlə Azərbaycanda vəzifədə olan məmur və deputatlarla bağlı araşdırılma aparılması haqda da xəbərlər yayılıb. Bildirilir ki, Hüseyn Abdullayevlə bəzi deputatların, onların övladlarının əlaqələri haqda da dolaşan məlumatlar araşdırma predmetidir, deputatların, məmurların qeyri-rəsmi sorğulanması xəbərləri də var. Hüseyn Abdullayev həbs ediləndən sonra belə xəbərlər yayılmışdı ki, o, Azərbaycandan mühacirət edəndən sonra ən müxtəlif adlarla yanına gedib-gələn vəzifə sahibləri, onların yaxınları, hətta övladları olub...**



Hüseyn Abdullayev hazırda Bakı İstintaq Təcridxanasında saxlanılır. Onun vəkili Ruhid Əkbərov "Yeni Müsavat"a açıqlamasında demişdi ki, müvəkkilinin şikayəti yoxdur. Sabiq deputatın qanunvericiliyə uyğun olaraq bütün hüquqları qorunur, vəkili Hüseyn Abdullayevlə mütəmadi olaraq görüşür.

Hüseyn Abdullayev Azərbaycanda bundan əvvəl də həbsdə olmuşdu. Deputat Fəzail Ağamalı ilə parlamentdə əlbəyaxa davasına görə tutulan Hüseyn Abdullayev bir müddət cəza çəkdikdən sonra azadlığa buraxılmışdı. Hazırda gerçəkləşdirilən istintaq çərçivəsində həmin vaxt baş verənlərin daha detallı şəkildə araşdırılması xəbəri var. Mümkündür ki, o dövrdə parlamentdə Hüseyn Abdullayevi müdafiə etmiş deputatlar da məhşər ayağına çəkilsinlər.

Qeyd edək ki, Hüseyn Abdullayev aprelin 22-də Türkiyədə yaxalanaraq Azərbaycana gətirilib. Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri onun həbsi ilə bağlı birgə məlumat yayıb. Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində "Araz İNC" MMC-də 1 milyon 436 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. 3 oktyabr 2016-cı il tarixdə H.Abdullayevin ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən ona Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılmışdır. Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan "Autist Uşaqların Reablitasiyasına Kömək" İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

# İngiltərə müstəntiqləri Cahangir Hacıyevi dindirə bilər - "Beynəlxalq Bank işi" böyüyür

**Əkrəm Həsənov:** "Zamirə Hacıyeva pulların özünə deyil, ərinə məxsus olmasına dair ifadə verməklə faktiki olaraq özünü xilas edib, Azərbaycan tərəfinin üzərinə böyük bir yük qoyub"

**Hazırda Londonda ev dustaqlığında olan Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin arvadı Zamirə Hacıyeva ilə bağlı proses davam edir. Onun Azərbaycana təhvil verilməsi, Azərbaycanın Beynəlxalq Bankından oğurlanan milyonlarla dolların ölkəyə qaytarılması məsələsi əsas müzakirə mövzularındandır. İttihamlara görə, Z.Hacıyeva Beynəlxalq Bankın 35 kartı ilə bankdan iri məbləğlərdə pullar çəkib və Londonda istədiyi kimi xərcləyib. Bu və digər məsələlərlə bağlı tanınmış hüquqşünas Əkrəm Həsənovun fikirlərini öyrəndik.**



**Hüquqşünasın sözlərinə görə, Zamirə Hacıyeva "Banklar haqqında" Qanuna görə banka aidiyyəti olan şəxs hesab olunur:**

- Zamirə Hacıyeva bank rəhbərliyinin yaxın qohumudur və buna görə də istənilən kreditin ona verilməsi üçün İdarə Heyətinin və Müşahidə Şurasının birgə qərarı olmalıdır. Belə qərarlar, böyük ehtimalla, olmayıb. Cahangir Hacıyevlə Müşahidə Şurasının münasibətlərini nəzərə aldıqda, başa düşürük ki, belə qərar verilə bilməzdi. Deməli, Zamirə Haciyevanın istifadəsində olan 35 ədəd Beynəlxalq bank kartı ona qanunsuz olaraq verilib. Hazırda həmin kartlar bloklanıb. Kartların bloklanması qaydası belədir ki, bank bağlanan kredit müqaviləsinə xitam verir, kartlar bloklanaraq ləğv olunur. Böyük ehtimalla, Zamirə Hacıyeva bu gün həmin kartlardan istifadə edə bilmir. Əgər Beynəlxalq Bank bu günə qədər həmin kartları bloklamayıbsa, bunun özü də cinayətdir. Başqa ehtimal da budur ki, həmin kartlar kredit kartları deyil, debet kartları olub. Yəni Zamirə Hacıyevanın bankdakı hesabına pul qoyulub və o, debet kartlar vasitəsilə həmin pullardan istifadə edib. Əgər həmin debet kartdakı pullar bankdan kredit götürülməklə hesaba qoyulubsa, bu halda da bankın hüququ yaranır ki, həmin hesabdan pulları öz hesabına geri çəksin".

**Azərbaycanlı müstəntiqlər Londona gedib orada Zamirə Hacıyevanı dindirə, sorğu-suala çəkə bilərlərmi?**

**Bu sala cavabında ekspert dedi ki, bu məsələ Azərbaycanla Böyük Britaniyanın qarşılıqlı münasibətlərindən asılıdır:** "Prinsipcə, beynəlxalq münasibətlərdə belə imkanlar tanınır. Təbii ki, buna Böyük Britaniya tərəfi etiraz da edə bilər. Azərbaycan onlardan xahiş edə bilər ki, belə bir şərait yaratsınlar. Belə bir imkanın tanınmaması Böyük Britaniyada aparılan istintaqın qeyri-obyektivliyinə dəlalət edəcək. Buna görə də prinsipcə razılıq verməlidirlər. Eynilə bu işlə bağlı britaniyalı müstəntiqlər Azərbaycanda kimlərisə dindirmək istəsələr, onlara şərait yaradılmalıdır".

cə, arvadın ərdən pul götürməsi cinayət deyil və Azərbaycan qanunlarına görə də belədir. Zamirə Hacıyeva deyir ki, pulun mənbəyi haqda məlumatsızdır. Azərbaycan tərəfi də Londona gedib sübut etməlidir ki, Cahangir Hacıyev həmin pulları qanunsuz olaraq əldə edib. Yəni London məhkəməsi, istintaqı Azərbaycandakı məhkəmə-istintaq deyil. Konkretliyə daha çox üstünlük verilir. Həmin pulların haradan, nə vaxt oğranılması haqda sübutlar, dəlillər ortaya qoyulmalıdır. Bu işə məsul olan, nəzarət etməli şəxslərin kimliyi, niyə bu işləri belə başdansovdu yanaşdıqları, hansı cəzaları aldıqları bir-bir aydınlaşdırılmalıdır. Azərbaycan dövlətinin bu işin sona çıxarılması istəyi ortadadır. Qarşı tərəf bundan imtina etsə, bu, əlbəttə ki, ağlabatan, vicdanlı hərəkət olmayacaq, bütövlükdə aparılan istintaqın obyektivliyini şübhə altına alacaq. Azərbaycan tərəfi əsaslı sübut və dəlillər təqdim etməsə, qarşı tərəf çıxıb deyəcək ki, təqsirsizlik prezumpsiyası var, siz heç bir əsas olmadan kimsəni mühakimə edə bilməzsiniz".

Zamirə Hacıyevanın vəkili, barrister Hyuqo Keytin və digər 2 vəkilin böyük qonorarlar qarşılığında xidmət göstərdikləri haqda məlumatlar var.

Bəs həmin qonorarların hesablanması qaydası və məbləği nə qədərdir?

**Əkrəm Həsənov söylədi ki, Böyük Britaniyada vəkillər saathesabı qonorar alırlar:** "1 saat



yev üçün heç bir əhəmiyyəti yoxdur, 15 il cəza alıb, həbsdədir. Həyat yoldaşı üçünsə var. Zamirə Hacıyeva etiraf etsə ki, bəli, bu işlərdə iştirak etmişəm, əlbəttə ki, onu cinayət məsuliyyətinə cəlb edərlər. Zamirə Hacıyeva başqa cür ifadə verə bilməzdi. Heç bir yerdə işləməyən, heç bir fəaliyyətlə məşğul olmayan Zamirə Hacıyeva üçün ən optimal yol məhz həmin qaydada ifadə verməsidir. Başqa cür ifadə versəydi, qanunsuzluqda iştirak etməsini təsdiqləmiş olardı. Deməliydi ki, pullar ərimindir, özünün qa-

Amma həmin pulların ələ keçirilməsində iştirak edən şəxslər buna mane olmağa çalışacaqlar. Bu halda Böyük Britaniya pulları Azərbaycana verməyə bilər. Azərbaycana sübut və dəlilləri ortaya qoymaq üçün Böyük Britaniya tərəfindən kifayət qədər - 2019-cu ilin iyununa qədər vaxt verilib.

**"Cahangir Hacıyevin britaniyalı müstəntiqlər tərəfindən dindirilməsi realdırmı" sualına cavabında hüquqşünas dedi ki, Azərbaycan tərəfinin razılığı ilə Cahangir Hacıyevin dindirilmə-**

üçün minimal məbləğ 400 funt sterlinqdən başlayıb 1000-1200 funt sterlinqə qədər ola bilər. Zamirə Hacıyevanın itini gəzdirən xanıma hər saat üçün 20 funt sterlinq ödəməsi haqda mətbuatda xəbərlər var. Bu da onu göstərir ki, xanım Hacıyevanın imkanları pis deyil. Böyük Britaniyada məhkəmə sistemi müstəqildir, ədalətlidir və müvafiq olaraq obyektivdir. Bu baxımdan da savadlı, işini bilən vəkillərin qonorarları da yüksəkdir. Çünki məhkəmənin verəcəyi qərar vəkildən çox asılıdır. Azərbaycanda isə belə deyil. Məhkəmələrin durumu göz qabağındadır".

Qeyd edək ki, Cahangir Hacıyevin arvadı Zamirə Hacıyeva Londonda ev dustaqlığına buraxılıb. Qərar Ali Məhkəmənin iclasında qəbul edilib. O, 500 min funt sterlinq (təxminən 1,2 milyon manat) girov qarşılığında zaminə buraxılıb və evində nəzarət üçün elektron qurğu yerləşdirilib. Şərtlərə əsasən, xanım Hacıyeva saat 21:00 və 06:00 arası evdə olmalıdır və hər gün Çarinq-Kross polis bölməsinə hesabat verməlidir. 55 yaşlı Z.Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən "İzahedilməz Sərvət Sərəncamı" (UWO) çərçivəsində noyabrın 6-da London polisi tərəfindən həbs olunub. Onun həbsi Azərbaycanda hakimiyyətin Zamirə Hacıyevanın Bakıya ekstradisiyası barədə xahişi ilə bağlı olub.

> **"Azərbaycan tərəfi də deyə bilər ki, gəlin bu məsələni tam araşdıraq. Qarşı tərəf bundan imtina etsə, bu, əlbəttə ki, ağlabatan, vicdanlı hərəkət olmayacaq, bütövlükdə aparılan istintaqın obyektivliyini şübhə altına alacaq"**

**Əkrəm Həsənov deyir ki, bir neçə ay əvvəl oxşar müraciətlə Rusiya istintaqçıları Böyük Britaniya hüquq-mühafizə orqanlarına müraciət ediblər:** ""Skripal işi" üzrə Rusiyalı müstəntiqlərin Skiripal ailəsindən ata və qızı dindirmək, sorğulamaq üçün təşəbbüs göstərdilər. Böyük Britaniya tərəfi iddia edir ki, Skiripallar Rusiya xüsusi xidmət orqanları tərəfindən zəhərləniblər. Rusiya tərəfi bu iddianı rədd edir. Lakin Böyük Britaniya tərəfi qəti olaraq buna etiraz etdi və Skripalları bu gün də gizlədir, yerlərini kimsəyə demirlər. Zamirə Hacıyevanın işində vəziyyət bir qədər fərqlidir. Onun həyatına hər hansı bir təhlükə yoxdur. Azərbaycan tərəfi onun şəxsinə qarşı hər hansı bir ziyanverici addım atmayıb. Əksinə, o, Azərbaycanın dövlət bankının pullarını sağa-sola xərcləməkdə ittiham olunur. Yəni Azərbaycan tərəfinə Zamirə Hacıyevanın dindirilməsi imkanını məhdudlaşdıran, heçə endirən hər hansı bir səbəb yoxdur".

**Zamirə Hacıyeva Londondan olan müstəntiqlərə deyib ki, mənim həmin pulların mənşəyi ilə bağlı hər hansı bir bilgim yoxdur, pullar həyat yoldaşımındır. Bu məqam mətbuatda Zamirə Hacıyevanın Cahangir Hacıyevə qarşı ifadə verməsi kimi dəyərləndirilib. Bu yanaşma doğrudurmu? Buna cavabında Ə.Həsənov dedi:** "Zamirə Hacıyevanın belə bir ifadə verməsi, böyük ehtimalla, Cahangir Hacıyevin razılığı ilə baş tutub. Onsuz da Cahangir Hacıyev həbsdədir. Məşhur Azərbaycan filmində - "Qorxma, mən səninləyəm"də belə bir səhnə var; mərhum aktyorumuz Həsənağa Turabovun canlandırdığı Üçgöz Cəfər deyir ki, bilirsən, mənim nə qədər günahım var? Biri az, biri çox, fərq etməz. Yəni Cahangir Hacı-

nunsuzluqlarda iştirakını bununla təkzib etmiş olur. O da elə belə də ifadə verib. Zamirə Hacıyevanı belə bir ifadə verəndən sonra məsuliyyətə cəlb etmək olduqca çətindir. Deyəcək ki, bankda işləməmişəm, hər hansı bir sənəddə imzam yoxdur, qərar verən şəxs olmamışam. O deyəcək ki, həyat yoldaşımın hesaba yatırdığı pulları haradan aldığını bilmirəm. Zamirə Hacıyeva həmin ifadəni verməklə faktiki olaraq özünü xilas edib, Azərbaycan tərəfinin üzərinə böyük bir yük qoyub. Böyük Britaniya tərəfi deyəcək ki, Zamirə Hacıyeva pulların hesaba həyat yoldaşı tərəfindən yatırılması haqda ifadə verib. Prinsip-

**si mümkündür:** "Obyektiv araşdırma aparılması Böyük Britaniya və Azərbaycanın hüquq-mühafizə orqanlarının marağındadırsa, onların müstəntiqləri Azərbaycanda Cahangir Hacıyevi, azərbaycanlı müstəntiqlər Londonda Zamirə Hacıyevanı dindirməlidirlər. Böyük Britaniya üçün "İzahedilməmiş Sərvət Sərəncamı" (UWO) yenidir və həmin sərəncama əsasən ilk cəlb olunan da Zamirə Hacıyevadır. UWO, Britaniyada potensial çirkli pullara malik şübhəli korrupsioner xarici rəsmiləri hədəfləmək üçün yeni qanundur. Azərbaycan tərəfi də deyə bilər ki, gəlin bu məsələni tam araşdı-

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Azərbaycanın müdafiə naziri Zakir Həsənov noyabr ayının 12-də bir qrup deputatı “Azərbaycan Ordusunun 100 illiyi medalı” ilə təltif edib. Təltif olunanlar arasında Milli Məclis üzvü Zahid Oruc da var. Bununla bağlı Z.Oruc müdafiə nazirinə təşəkkür edib.**

# Zakir Həsənov deputatlara medal verdi, Zahid Oruc nazirə təşəkkür etdi

Musavat.com deputatın fikirlərini təqdim edir:

“12 noyabr tarixində - müstəqilliyimizin və azadlığımızın simvolu olan Konstitusiyanın qəbulu günündə ”Azərbaycan Ordusunun 100 illiyi medalı" ilə təltif olunmaq şəxsimiz adına gerçəkdən də qürurvericidir.

Bizlər böyük Heydər Əliyevin sərkərdəlik hünəri ilə formalaşan Azərbaycan Silahlı Qüvvələri rəhbərinin qərarı ilə qazandığımız mükafatları millətimiz qarşısında yerinə yetirdiyimiz şərəfli vəzifənin daha da məsuliyyətlə davam etdirilməsi hadisəsi kimi dəyərləndiririk.





4 ay öncə, iyul ayının 2-də hörmətli daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən “Azərbaycan polisinin yaradılmasının 100 illiyi” ilə əlaqədar medalla təltif edilərkən bizlərin hər biri millətimizin azadlığı və təhlükəsizliyinin təmin olunmasında daxili işlər orqanlarının nə qədər əhəmiyyətli yer tutduğunu yaxşı başa düşürdük. Bir əsrlik yaşı olan Azərbaycan polisinin son 27 ildə dövlətimizə sədaqət və peşəkarlıqla xidmət etməsi təkcə hakimiyyət orqanları tərəfindən deyil, eləcə də xalqımızın hər bir sıra nəfərinin ədalətli qiymətini alıb, ehtiram və hörmətinin sabit ünvanına çevrilib.

İndi hörmətli Ramil Usubovdan sonra dəyərli müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordumuzu sevən, ona mənəvi və siyasi yardımını əsirgəməyən insanlara verdiyi dəyəri rəsmi əmrə və qərara çevirməsi əsl dövlətçilik ənənələrinin formalaşdığını əyani sübut edir.

Son 5 ildə Silahlı Qüvvələrimizin Vətənin keşiyində daha rəşadət və igidliklə dayanması, Azərbaycanın torpaq bütünlüyü yolunda müqəddəs döyüşə hazır olduqlarını nümayiş etdirməsi danılmaz həqiqətlərdir. Çünki Zakir Həsənov özü səngərdə əsgərin və zabitin taleyini bölüşən rəhbərdir və onun əzmkarlıqla, böyük inam hissi ilə çalışması ilk növbədə prezidentimiz və xalqımızın qarşısında tarixi bir vəzifəni yerinə yetirdiyini başa düşməsinin göstəricidir.

> “Zakir Həsənovun ordumuzu sevən, ona mənəvi və siyasi yardımını əsirgəməyən insanlara verdiyi dəyəri rəsmi əmrə və qərara çevirməsi əsl dövlətçilik ənənələrinin formalaşdığını əyani sübut edir”

Bəli, indi inamla demək olar ki, 100 il ərzində döyüş meydanlarında bir millətin nizamlı ordu kimi çıxış edəcəyinə yönələn şübhələr tamamilə yerlə-yeksan oldu. Müasir texnika və texnologiyaya sahib olan, təlimlərdə qüvvə toplayan ordumuz nəinki Cümhuriyyət dövrü, eləcə də 90-cı illərdəki silahlı hərbi dəstələrdən qat-qat güclüdür.

15 sentyabrda Azadlıq meydanında şərəflə addımlayan ordumuz hamımızın qürur mənbəyidir. Ona görə də Ali Baş komandan İlham Əliyevin əmri həm silahlı, həm də silahsız ordular üçün qeyd-şərtsiz yerinə yetirilməli olan qanun qüvvəsinə malikdir.

Siyasi məkanda və parlamentdə özünü vətənin döyüşçüsü kimi hiss etmək ordumuzun sıralarında olmağa bərabər bir hadisə sayılmalıdır. Ona görə Bayrağı, Torpağı və Konstitusiyanı qoruyan əsgər və zabitlərimizə ən xoş arzularımızı dilə gətirir, bir xalqın layiq olduğu bütövlüyü və toxunulmazlığı naminə Azərbaycan ordusuna daimi qələbələr arzulayırıq".

❑ **Musavat.com**

# Meydan hərəkatı liderləri 30 il sonra bir yerə toplanır

## Sabir Rüstəmxanlı: “Birliyimizə böyük ehtiyac var”

**Azərbaycanda milli azadlıq hərəkatının başlanmasının 30 ili yaxınlaşır. Milli Dirçəliş Günü kimi qeyd olunan 17 noyabr ərəfəsində bu günün bayramlar sırasından çıxarılması və digər məsələlər müzakirə mövzusuna çevrilir. Eyni zamanda sonunda müstəqilliklə nəticələnən milli azadlıq hərəkatı olmasaydı, Dağlıq Qarabağı itirməzdik kimi məsələlər də aktuallaşır və bununla bağlı geniş müzakirələr açılır.**

Bu önəmli tarixlə bağlı bu il də bir sıra tədbirlər keçiriləcək. Bununla bağlı “Yeni Müsavat”a azadlıq hərəkatının öncül isimlərindən sayılan **VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı** məlumat verdi: “17 noyabrda Beynəlxalq Mətbuat Mərkəzində meydan hərəkatının 30 illiyini qeyd edəcəyik. Bu bir yubiley tədbiri olacaq. Bu azadlıq hərəkatı bir ümumxalq hərəkatı olduğu üçün hər kəsi dəvət edəcəyik. Önəmli tarixi kiminsə ayağına, yaxud bir partiyanın adına çıxmaq doğru deyil. Amma şübhəsiz ki, meydanı 17-18 gün idarə edən adamlar var idi. Biri Nemət Pənahlı idi, biri də mən. İlk günlərdə Məhəmməd Hatəmi də olmuşdu. Lakin sonradan o ayrıldı. Bu, bizlər üçün parlaq bir səhifədir. O, meydan hərəkatı bütün dünyada xalqımıza hörmət qazandıran, xalqımızın adını dünya mətbuatına gen-bol çıxaran bir proses idi. Eyni zamanda dövlət atributlarımızı bizə xatırladırdı. Onun əziyyətini kiçiltmək olmaz. Bu gün ölkəmizin tanınmış günləri sırasında Milli Dirçəliş Günü də var. Bu da milli azadlıq hərəkatı nəticəsində yaranıb. Məhz o hərəkatın sonunda ölkəmiz müstəqilliyini bərpa edib. Həm də o hərəkat SSRİ-nin dağılmasına da təkan verib. Bu parlaq tarixi yaddan çıxarmaq, unutmaq olmaz. Keçirəcəyimiz tədbir barədə məlumat vermişik, bildirişlər paylamışıq. Bu tədbir mətbuat üçün də açıqdır. Çalışacağıq ki, həmin günə layiq bir tədbir keçirək”.



**S.Rüstəmxanlı keçən 30 ili də dəyərləndirdi:** “Keçən bu 30 ilə hansı tərəfdən baxmaq, hansı yöndən yanaşmaq əsasdır. Bir yazı da bu barədə yazmışam, mənə elə gəlir ki, min ildir yaşayıram. Çünki o qədər hadisələrin şahidi olmuşam ki, həmin hadisələri qəlbimlə yaşamışam. Qısa bir ömürdə neçə min il yaşayırsansa, o ömür əslində çox uzun görünür. Müstəqilliyin ilk illərində başımız çox işlərə qarışdı, torpaqlarımızı itirdik, çoxsaylı ciddi problemlər yaşadıq, milli birlik və həmrəylik yolunda atılan addımlar hər zaman çətinliklərlə qarşılandı. Bütün bunlar elə bir vəziyyət yaratdı ki, heç bilmədik bu illər necə gəlib keçdi. Elə bilirəm ki, meydan hərəkatı dünən və ya srağagün olub. Amma fikirləşəndə görürük ki, çox uzun bir zaman keçib. Bu illər ərzində çoxsaylı insanlar, yaxın adamlar itirmişik.

**Xalq şairi müstəqillik qazanmağımızla bağlı səslənən müxtəlif fikirlərə də mövqe sərgilədi:** “Tərəddüdlər ola bilər. Kimlərinsə başqa cür düşünməsi də normaldır. Amma unutmaq olmaz ki, Qarabağ SSRİ-nin vaxtında verilmişdi. Mixail Qorbaçovun əməllərini niyə unudublar? Kamran Bağırovun vaxtında Qarabağa getmişdim, 1988-ci il idi. Orada ermənilər yığışıb mitinq keçirirdilər. O zaman Azərbaycan hökuməti cəsarətli tərpənsəydi, bəlkə də bu hərəkatı boğa bilərdi. Çünki ermənilər yürüşə qorxa-qorxa çıxmışdılar. Təbii ki, Moskva onlara az şərait yaratmışdı, həm də ermənilərə şirnikləndirici vədlər vermişdi. Nəticədə ermənilər də o cür qol-qanad açmışdılar. Bu separatizm, yeni Dağlıq Qarabağın verilməsi prosesi SSRİ dövründə başlamışdı. O dövrdə məhz Qarabağ üçün xüsusi idarə yaradılmışdı. Qarabağı mümkün qədər Ermənistana yaxınlaşdırmışdılar. Onu da unutmayaq ki, sovet dövründə Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında qərar çıxarılmışdı. Ona görə müstəqil olmasaydıq, Qarabağı itirməzdik kimi düşüncələr sadəlövhlükdür. O başqa bir söhbətdir ki, müstəqillik dövründə müəyyən səhvlərimiz olub. Müstəqilliyin ilk illərində ölkə rəhbərliyinin çoxlu səhvləri oldu. Milli azadlıq hərəkatı nəticəsində hakimiyyətə gələn yeni iqtidar, demokratik düşərgənin adamları da çoxlu səhvlər etdilər. Onun nəticəsində Qarabağın işğalı prosesi dərinləşdi. Amma istənilən halda Qarabağın verilməsini müstəqil dövlətin adına yazmaq doğru deyil”.

**Müsahibimiz Milli Dirçəliş Gününün bayramlar sırasından çıxarılmasına bu cür mövqe bildirdi:** “30 il ərzində iqtidar-müxalifət münasibətləri, milli azadlıq hərəkatına laqeyd münasibət bəzi dəyərlərimizin gözdən salınmasına səbəb olub. Amma bunlar o önəmli tarixi unutdura bilməz. Hər şey bir kənara, bir milyon yarım insan o meydanda 18 gün qalıb. Meydan hərəkatı və onun nəticələrindən asılı olmayaraq o xalqa sayğı göstərmək lazımdır. İqtidar-müxalifətin bir araya gəlməsinə, yaxud gətirilməsinə gərək bir həvəs olsun. Buna dəfələrlə çalışmışıq. Qarabağ problemi millidir. Qarabağ forumu keçirdik və iqtidarı dəvət etmişdik. Ən azından orada nələrin deyildiyini dinləmək üçün gəlmək lazım idi. Amma gələn olmadı. Əvvəllər dialoqlar təşkil olunurdu. İndi onlar da dayandırılıb. Azərbaycanda müxalifətin olmaması barədə təsəvvür yaratmaq çox yanlışdır. Torpaqlarımızın azad edilməsi, milli iradənin bir yerdə olması baxımından birliyimizə böyük ehtiyac var. Birlik daha çox hakimiyyət düşərgəsinin istəyi ilə olmalıdır. Əslində bu daha çox onların xeyrinədir. İstək birtərəfli olanda nəticəsiz qalır”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018



# Kreml KTMT-ni necə genişləndirməyi düşünür?

**Hüseynbala SƏLİMOV**

**Belə çıxır ki, bunlara Ukrayna, Krım, postsovet məkanındakı bir neçə münaqişə azlıq edir. Belə alınır ki, Suriya da bunlar üçün azdır, bunlar daim ölkəni yeni-yeni münaqişələrə çəkməyə, onun hərbi gücünü qeyri-adi miqyaslara qədər şişirtməyə çalışırlar.**

"NATO-nun səsi hər yerdə eşidilir, amma bunu əzizimiz KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) haqqında demək olmur" - bəli, Rusiyanın təhlükəsizlik və hərbi siyasət sahəsindəki "mütəxəssis"lərindən biri "rus NATO"-sunun problemini məhz bu cür çatdırmağa çalışır.

Müəyyən mənada, əbəttə, o, haqlıdır, səslər ancaq KTMT-nin sammitlərindən gəlir. Hətta Minsklə yaşanan problemlər, Belarus liderinin çox fəndgir manevrləri, təşkilat daxilindəki kövrək tarazlığın N.Paşinyanın Ermənistanda hakimiyyətə gəlməsilə pozulması, Ukraynanın post-sovet təhlükəsizlik məkanını birdəfəlik tərk etməsi - qəribə olsa da, hətta bunların hamısı belə KTMT-nın yaşadığı problemlərin tam siyahısı deyil....

Məsələnin hətta qoyuluşu - KTMT-ni NATO ilə müqayisə etmək cəhdləri bir daha göstərir ki, özünü siyasi analitik və ya politoloq adlandıran rusiyalılarda belə hər şeyi şişirtmək həvəsi və sözün əsl mənasında böyüklük maniyası var.

Özünüz baxın, Rusiyanın bütün iqtisadiyyatı ABŞ-ın bir ştatının - Kaliforniyanın iqtisadiyyatı qədər deyil. ABŞ-ın təkcə hərbi büdcəsi Rusiyanın total büdcəsindən iki dəfər böyükdür. Əgər biz NATO üzvü olan ölkələrin ÜDM-i və ya milli gəlirlərini KTMT iştirakçısı olan ölkələrlə müqayisə etsək, ümumiyyətlə, fantastik mənzərə alınar! Bəs rusiyalı mütəxəssislərə bunlar bəlli deyilmi? Yox, bilirlər, amma onlar belə suallara adətən bir cavab verirlər: "Bizim nüvə başlıqlarımız daha çoxdur"...

Müqayisə üçün başqa bir göstəricilər də var. Məsələn, NATO ilə KTMT-nin coğrafiyası. KTMT yalnız "axsaq" post-sovet ölkələrini, özü də onların da bir hissəsini əhatə edir. Odur ki, sonuncu sammitdə ciddi şəkildə təşkilat daxilində yeni statusların yaradılmasını, bəli, tərəfdaş və müşahidəçi ölkələr institutunun bərqərar edilməsini müzakirə edirdilər.

Kreml çox ümid edir ki, bu institutlar təsis ediləndən sonra təşkilatın coğrafiyası genişlənəcək, guya ki, bura yeni ölkələr daxil olacaq, xüsusən də deyilir ki, guya İran və Pakistan bu arzudadır, hansına ki, biz qətiyyən inanmırıq.

İran məlum olduğu kimi, ABŞ-ın ciddi pressinqi altındadır və istisna deyil ki, Tehran bir müddət KTMT-nın çətiri altında yer aramış olsun. Amma İran çox iddialı ölkədir və buna ən azı onun Suriyadakı siyasətini müşahidə etməklə əmin olmaq mümkündür. Amma bir daha qeyd edirik ki, dünyanın işlərini bilmək olmaz, prinsipcə, Tehran buna - KTMT ilə yaxınlaşmaya gedə bilər.

Pakistanla bağlı konkret söz deməksə daha çətindir. Bu ölkə xeyli müddət bölgədə ABŞ-ın əsas müttəfiqlərindən olub. Düzdür, hazırda iki ölkə arasında soyuqluq yaranıb, amma eyni hal Ankara ilə Vaşinqtonun da münasibətlərində sezilir və baxmayaraq ki, Rusiya mediasında onun da NATO-nu tərk edəcəyi, Avrasiya İqtisadi Birliyinə, hətta KTMT-na qoşulacağı haqda "xəbərlər" peyda olur, yenə də heç kim bunu ciddiyə almır.

Hətta fərz etsək belə ki, Moskva həqiqətən də Tehranı və İslamabadı özünə tərəf çəkə biləcək, böyük hesabla yenə də heç nə dəyişməyəcək, çünki NATO ilə KTMT arasında daha bir fərq var: müəyyən daxili ziddiyyətlərə və bəzi futuroloqların bədbin proqnozlarına rəğmən yenə də dövlətlər məhz NATO-nun üzvü olmağa can atırlar, amma ki, bunu KTMT ilə bağlı demək olmur - çox qısa müddət keçməsinə baxmayaraq bu təşkilatı artıq üç dövlət tərk edibdir...

Nəhayət, Azərbaycanla bağlı Kremlin planları haqda. Belə fikir də var ki, Kreml yeni statusları ilk növbədə Azərbaycan üçün nəzərdə tutubdur. Amma Bakı dəfələrlə bəyan edib ki, ikitərəfli əlaqələr onun üçün daha önəmlidir və demək olar ki, bütün KTMT dövlətlərilə onun sıx əlaqələri var.

Fəqət, Kremli bu qane etmir. Prinsipcə, Rusiyanın təklifini öyrənmək olar, amma dərhal sual yaranır: onları qəbul edəcəyimiz təqdirdə bizim mükafatımız nə olacaq? Əgər bundan sonra işğal olunmuş rayonlar geri qaytarılarsa, Qarabağ problemi həll olunarsa, gedib müşahidəçi bir ölkə kimi KTMT-nin sammitlərində iştirak etmək də olar. Yox, əgər Kremldə düşünürlərsə ki, təkcə Azərbaycana KTMT-da status verməyin özü böyük bir lütfkarlıqdır - o halda çox böyük səhv edirlər...

# Bayrağımızın üç rənginin ideoloqu kimdir?

**Azərbaycanda 9 noyabr Dövlət Bayrağı Günü bəzi müzakirələr maraq doğurub. Bəziləri qeyd edib ki, bayrağın banisi Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadədir. Digər tərəf isə bayrağın banisi kimi türk dünyasının böyük mütəfəkkiri Əli bəy Hüseynzadənin adını qeyd edib. Bəs əslində həqiqət necədir və bu cür fikirlər hansı tarixi hadisələrdən qaynaqlanır?**

## Anar İsgəndərov: "Həm Əli bəy Hüseynzadə, həm Ziya Göyalp, həm də Məhəmməd Əmin Rəsulzadə prinsip etibarilə bir-birindən fərqli düşüncə ortaya qoymayıblar"

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan tarix elmləri doktoru, professor Anar İsgəndərov həmin dövrün tarixini anlatdı. Tarixçi bildirdi ki, əslində Rəsulzadə və Əli bəy Hüseynzadənin arasında fikir ayrılığı olmayıb:** "1908-ci ildə "Füyuzat"da Əli bəy Hüseynzadə, gələcəkdə qurulacaq olan cümhuriyyətin bayrağının hansı rəngdə olmalı olduğunu yazdı. Bu, türkləşmək, islamlaşmaq, müasirləşmək idi. Sadəcə olaraq, Əli bəy Hüseynzadənin verdiyi bu formada avropalaşmaq, müasirləşmək üçüncü gəlirdi. Yəni bayrağın qırmızı rəngi ikinci deyil, üçüncü göstərilirdi. 1915-17-ci illərdə, Məhəmməd Əmin Rəsulzadə yenidən bu məsələyə qayıdan zaman fərqli fikir ortaya qoydu. O, zamanı nəzərə alaraq, müasirləşməyi ikinci yerə çəkdi. Yəni qırmızı rəngi ikinci olaraq qeyd etdi. Çünki Birinci Dünya müharibəsi başlanandan sonra hamı bilirdi ki, dünyanın siyasi xəritəsinə dəyişiklik edənlər Qərb dövlətləri, yəni Avropa olacaq. Avropalaşma da nə qədər xeyir və nə qədər ziyandırsa, Rəsulzadə bunu izah edirdi. İzahı verəndə artıq demokratiyanın beşiyi olan Avropanın bir tərkib hissəsi olmağını nəzərə alaraq deyirdi ki, Əli bəy Hüseynzadənin təqdim etdiyi formulada birinci yer dəyişməsin - türkçülük olsun. Rəsulzadə ikinci yeri müasirləşməyə, üçüncü yeri isə islamlaşmağa verirdi. Əli bəy Hüseynzadənin verdiyi düsturla Rəsulzadənin düsturu arasında fərq nə idi? Deyim ki, Əli bəy Hüseynzadə qeyd etdiyimiz düsturu verən zaman hələ Birinci Dünya müharibəsi başlamamışdı və dünya dövlətlərinin siyasi xəritəni cızan zaman nəyə nail ola biləcəklərini Hüseynzadə o vaxt bilə bilməzdi. Əli bəy Hüseynzadə hələ bir qədər sonra Balkan müharibələrinin iştirakçısı olacaq, bundan sonra isə Birinci Dünya müharibəsi başlayacaqdı. 1918-ci ildə müharibə bitdikdən sonra Osmanlı bu müharibədən məğlub kimi çıxdı. Biz isə bundan sonra üzümüzü Avropaya çevirdik. 1920-ci il yanvar ayının 11-də Paris sülh konfransının Ali Şurası bizi tanıyanda özümüzü çox xoşbəxt saydıq. Eynilə 2001-ci ildə biz Avropa Şurasına daxil olan zaman da belə oldu. Eyni şeydir. Hələ Avropa Şurasına daxil olmağımız 21-ci əsrdir. Cümhuriyyət dövründə baş verən hadisə isə bu demək idi ki, ilk dəfə olaraq bütün ərazimiz Azərbaycan adı altında tanınıb. Bu mənada da təbii ki, Rəsulzadə dövrün siyasi mənzərəsini nəzərə alaraq, müasirləşməni ikinci etdi. Həqiqətən də düz etdi. Ona görə yox ki, bunu biz deyirik. Yəni həyat da göstərdi ki, Rəsulzadənin atdığı addım çox doğru idi".

**Tarixçi bildirib ki, Əli bəy Hüseynzadə yazısında qeyd edirdi ki, biz avropalıları istəmirik, ancaq Avropa dəyərlərini hər zaman qəbul etməyə hazırıq:** "Yəni Avropa düşüncəsi bizə lazımdır, lakin Avropa bizi öz siyasi maraqlarının təsiri altına salmasın. 1918-ci ilin 17 noyabrında general Tomson Bakıya daxil olan zaman ona deyirdik ki, heç zaman Böyük Britaniyanın müstəmləkəçilik əhval-ruhiyyəsini qəbul edə bilmərik və onun müstəmləkəsi də olmaq istəmərik. Doğrudan da belə oldu. Tomson noyabrda gəlib dedi ki, Azərbaycan hökumətini tanımır, dekabr ayında isə əksini söylədi. Bütün bunlar onu göstərir ki, həm Əli bəy Hüseynzadə, həm Ziya Göyalp, həm də Məhəmməd Əmin Rəsulzadə prinsip etibarilə bir-birindən fərqli düşüncə ortaya qoymayıblar. Aralığında heç fikir ayrılığı da olmayıb. Sadəcə, burada söhbət, şəraitə uyğun fikirdən gedirdi. Birinci Dünya müharibəsindən sonra xeyli imperiya çökdü. Əlbəttə ki, bütün bunlardan sonra siyasi irəliləyişə, siyasi qərara yenidən baxmağa ehtiyac vardı. Rəsulzadə də bunu etdi. Nə o dövrün sənədlərində, nə də mühacirət dövrünün sənədlərində bu məsələ ilə bağlı Əli bəy Hüseynzadə ilə Rəsulzadə arasında fikir ayrılığı olmayıb. Hər ikisi nəzəri cəhətdən 1918-ci il mayın 28-nə qədər bu nəzəri fikri irəli sürmüşdülər. Lakin 1918-ci ilin 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyəti elan olunan zaman biz ilk dəfə Osmanlı bayrağına oxşar bayrağı qəbul etdik. Təbii ki, Osmanlı müharibənin iştirakçısı kimi məğlub oldu. Artıq Azərbaycan Cümhuriyyəti rəhbərliyi də vaxtilə nəzəri cəhətdən işləmiş olduğu bayrağı ortaya qoydu. Həm də bu bayraq hamının olub. Bu, bir nəfərin olmayıb".



**A.İsgəndərov qeyd edib ki, bayrağımız bütün Azərbaycanın bayrağı olmasaydı, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini elan edən zaman 3 rəngli bayrağı qəbul etməzdi:** "1991-ci ildə 3 rəngli bayrağımızı qəbul edən zaman da heç bir fikir ayrılığı olmadı ki, hansı rəngi necə edək. Cümhuriyyətdən bizə verilən bayraq necə idisə, bu gün də o cürdür. Həyat da göstərdi ki, biz şərqli düşüncənin sahibi olaraq, Qədim və Orta Şərqlə nə qədər çox öyünürüksə öyünək, bu gün hansısa prosesin həllində Avropa ilə məsləhətləşirik. Yəni Avropa dəyərlərini istəyirik. O dəyərləri istəyirik ki, bu, bizim dəyərlərin əleyhinə deyil. Həmin dəyərlərdir ki, orada demokratiya, ədalət, xalqların bərabərliyi var. Fransa burjua inqilabının dəyərlərindən biri bunlardır. Lakin Fransa burjua inqilabına qədər də bu dəyərlər bizdə vardı. Çünki Azərbaycan islamı qəbul etdikdən sonra ən yüksəkdə islami dəyərlər gəldi. İslami dəyərlərə görə də insan-insanı istismar edə bilməz, zülm edə bilməz, haqqını yeyə bilməz, böyüyün öz yeri, kiçiyin öz yeri var. Bizim bayraqda da bir rəng islami dəyərlərlə bağlıdır. Təbii ki, türkçülük də Azərbaycan xalqının dünyaya verdiyidir. Cümhuriyyət də 114-cü türk dövlətidir. Dünya düzəninin qurulmasında türk dövlətlərinin böyük tarixi olub. Onun ən böyük imperiyası Osmanlı idi. Osmanlının da dünyanın 3 qitəsində torpağı vardı. Ancaq orada ədalət, haqq, şəriət və şəriətin qanunları vardı. Osmanlıda qeyri-müsəlmanlara yuxarıdan aşağı baxılmırdı. Əksinə, qeyri-müsəlmanlara qoyulan vergi daha az idi. Dünyanın hansı ölkəsində fəth olubsa, onların kilsəsi, sinaqoqu dağıdılmayıb. İlk cümhuriyyəti də Allah bizə nəsib etdi. Bizim cümhuriyyətimiz qurulan zaman da rəngindən, irqindən, cinsindən asılı olmayaraq Azərbaycan cümhuriyyətində yaşayan bütün insanlar qanun qarşısında bərabər elan olundu. 1920-ci il aprelin 28-nə qədər də bu qanunlara riayət edildi".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

**"Resonance" Beynəlxalq Məsləhət Şirkəti 2019-cu il üçün yaşayış şərtlərinə görə dünya şəhərlərinin reytinqini tərtib edib. Şirkət tərəfindən mənzil əldə etmək və işə düzəlmək imkanları, ətraf mühitin vəziyyəti, iqtisadiyyatın və mədəniyyətin səviyyəsi kimi cəmi 23 amil əsas götürməklə dünyanın 100 şəhəri təhlil olunub və birinci yerə London layiq görülüb. Sonrakı yerlərdə Paris, Nyu-York, Tokio, Barselona, Moskva, Çikaqo, Sinqapur, Dubay və San-Fransisko qərarlaşıb (Report).**

# Niyə London - Avropanın maliyyə mərkəzini cəlbedici edən amillər

## Britaniya paytaxtına dünyanın hər yerindən təkcə turistlər axışmır



Bəlkə də elə buna görə 2017-ci ildə Londona 19,8 milyon turist gəlib ki, bu da əvvəlki illə müqayisədə 1 milyon çoxdur.

Maraqlıdır ki, London, sadəcə, insanları turistik gəzinti üçün deyil, dünyanın hər yerindən olan sərvət sahiblərini də cəlb edir - yaşamaq və biznes üçün. Bu günlərdə Beynəlxalq Bankın sabiq rəhbərinin xanımı Zamirə Hacıyevanın başına gələnlər Londonu varlı insanların toplaşdığı bir məkan kimi ölkəmizdə diqqət mərkəzinə gətirdi. Britaniya hüquq-mühafizə orqanlarına yaxın mənbələrə istinad edən xarici mətbuatın yazdığına görə, Z.Hacıyevanın taleyini yaşayanların sayı getdikcə artacaq - rəsmi Londonun tətbiq etdiyi yeni qanunun minlərlə şəxsə şamil olunacağı gözlənilir. Bəzi məlumatlara görə, Britaniyada təkcə postsovet ölkələrindən aparılan 4 milyard funtsterlinqə yaxın vəsait sahibləri ilə birlikdə "sığınacaq" alıb. Təsadüfi deyil ki, korrupsiyaya qarşı addım sayılan yeni qanunun qəbulundan sonra Rusiya əsilli milyarderlərin Britaniyadakı varidatı gündəmə gəlib. Rusiya mətbuatı indinin özündə də yeni qanunun əhatə dairəsinə düşəcək rusiyalıların mümkün siyahısını müzakirə etməkdədir.

Bəs Böyük Britaniyanı, onun paytaxtını dünyanın hər yeri üçün cəlbedici edən nədir? Niyə varlılar Britaniyaya axışır?

Suala cavab verməzdən öncə qeyd edək ki, yalnız ayrı-ayrı varlı şəxslər deyil, bütün dünyadan, hətta ABŞ və qonşu Avropa ölkələrindən olan nəhəng şirkətlərin sahibləri də Britaniyaya "köçürlər". Onların məqsədi daha yumşaq qaydalar tətbiq edən Britaniya vergitutma qanunvericiliyindən bəhrələnməkdir. Lakin son onilliklərdə Britaniyaya gələnlər arasında belələrinin sayı çox azdır. Çünki gələnlərin böyük əksəriyyəti vətənində qanunsuz yollarla əldə etdiklərini leqallaşdırmaq, bir xeyli hissəsi isə öz ölkəsindəki rejimlərin təzyiqlərindən qurtulmaq məqsədi güdənlərdir.

Bu prosesin əsası isə 200 il əvvəldən qoyulub. Onda ilk dəfə London Fransada inqilabdan qaçan varlılara sığınacaq verdi. Həmin dövrdən bəri öz ölkəsindəki vergi rejimindən narazı olan, yaxud daha az ödəniş etmək istəyən varlılar Britaniyaya axışmağa başladılar. Burada onlar pullarını London-Sitiyə yatırırdılar. Həmin pulların sayəsində London Avropanın maliyyə mərkəzinə çevrilə bilib. 20-ci əsrdə yunan gəmi sahibləri olan milyarderlərin seçdiyi yer oldu London. Onlar yalnız Britaniya ərazisində əldə etdikləri gəlirlərdən vergi ödəyirdilər. Bu isə kənarda yerləşən şirkətlərin milyardlarla qazancını vergidən kənarda saxlamağa imkan verirdi.

Yunanların ardınca London ərəb şeyxlərinin diqqətini cəlb etdi. Yüzlərlə ərəb şahzadələri, neft pullarının milyarderləri, Londonu yaşayış, təhsil və pullarını yatırtmaq üçün əlverişli məkan kimi seçməyə başladılar.

2000-ci illərin əvvəllərindən isə postsovet ərazisindən Britaniyaya axın başladı. Bu axında Rusiya əsilli milyarderlər xüsusi yer tuturdu. Bəzi məlumatlara görə, hazırda Britaniyada 700-dən yuxarı Rusiya əsilli varlı məskunlaşıb.

Asiyadan da Londona axın davam edir. Məsələn, Hindistandan olan polad kralı Lakşmi Mittal Londonda 30 milyon funtsterlinqə aldığı evdə yaşayır. Bu evə görə o, London bələdiyyəsinə ayda 2 min funtsterlinq ödəyir.

Bu qədər axının isə iki mühüm səbəbi var. Məsələ burasındadır ki, uzun illərdən bəridir Britaniya aşağı vergi ödənilən cənnət kimi dünyanın hər guşəsindən varlıları özünə cəlb edir. Burada qeyri-rezident kimi yaşayan, yəni daimi yaşayış yeri kimi Britaniyanı göstərməyən, amma vətəndaşlığı olan minlərlə milyarder demək olar ki, cüzi vergi ödəyir.

Londonda Britaniyada daimi yaşamaq istəyində olmayan varlıların malikanələrindən ibarət bütöv küçələr meydana gəlib. Hansı ki, bu şəhərdə 5 milyon funt strelinqdən ucuz malikanə əldə etmək mümkün deyil.

Britaniyanı cəlbedici edən ikinci məsələ asan vətəndaşlıq alınması, iqtisadi və siyasi mühafizə imkanlarıdır. Mütəxəssislər bildirirlər ki, sadəcə, Britaniya şirkəti deyil, məhz ofşorda yaradılmış şirkətin Britaniyadakı törəməsi olmaq daha sərfəlidir. Çünki Britaniyada qeydiyyatdan keçən şirkətlər barədə bütün məlumatlar - təsisçilər, direktorlar, benefisiarların kimliyinədək bütün vətəndaşlar üçün açıq olan reyestrə daxil edilir. Lakin offşorda qeydiyyatdan keçib Britaniyada törəmə yaradan şirkətlər üçün bu şəffaflaşma keçərli deyil. Eyni zamanda ikincilər birincilərdən fərqli olaraq yumşaq vergi rejimində işləyirlər.

Adətən ofşor şirkətlərin qeydiyyat yeri kimi Böyük Britaniyaya məxsus Virciniya və Seyşel adaları seçilir. Bu ofşorlarda yaradılan şirkətlərin sahibləri, benefisiarları və maliyyə göstəricilərinin açıqlanması tələb olunmur. Elə buna görədir ki, bu gün London fond birjasında kağızları ilə alver edilən hər yüz şirkətdən 65-70 faizinin qeydiyyat ünvanı ofşorlardır. Hətta dünyanın ən iri 500 şirkətinin 72 faizinin ofşorlarla sıx əməkdaşlıq etdiyi məlumdur.

Yüzilliklər boyu Britaniya varlı insanlara vergi və vətəndaşlıq təminatı verərək onları özünə cəlb edib. Yaxın illərədək gələn adam özü ilə nə qədər pul gətirsə belə, yalnız Britaniya ərazisində qazandığı gəlirdən vergi ödəyirdi. İndi isə Birləşmiş Krallıq onların gətirdiklərinin mənşəyinin açıqlanmasını istəyir. Bəzi analitiklərin fikrincə, bu ilin yanvarından tətbiqinə başladılan yeni qanunun işləməsi üçün Britaniya özünün bütün qanunvericiliyini dəyişməli olacaq. Belə ki, mənşəyi naməlum qalan varidatın, habelə onun sahibinin taleyi sual altında qalmaqdadır. Açıqlanması mümkün olmayan varidata görə insanların hansı yolla cəzalandırılacağı da dəqiq müəyyənləşdirilməyib.

Hər bir halda, Britaniya getdikcə vergi cənnəti obrazını dəyişir. Aristokrat ingilislər belə alçaldıcı obrazdan qurtulmaq qərarında qəti görünürlər. Bu isə o deməkdir ki, dünyanın hər yerindən, elə Azərbaycandan başqalarının da bu ölkəyə daşınan sərvətlərə görə cavab verəcəyi gün uzaqda deyil. Çünki Z.Hacıyeva kimi Londonda mülk sahibi olan azərbaycanlılar çoxdur - işdən çıxarılan orta ranqlı məmurların belə Britaniyada şirkəti, malı-mülkü aşkarlanır. Bu baxımdan yaxın vaxtlarda məhkəmə önünə çıxarılanlar arasında azərbaycanlı görsək, təəccüblənməyəcəyik...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

---

# Cin ayrı, din ayrı - pir və ocaqlardan şəfa umanlar əsri



**Xalid KAZIMLI**

**Gəncliyimdə iki il Şabran rayonunda işləmişəm. O zamanlar rayonun adı Dəvəçiydi. Təyinatla getmişdim. 30 il əvvəl rayon sakinləri xurafatçı deyildi, şən, deyib-gülən, yeyib-içən camaat idi, hər yerdə olduğu kimi, Şabranda da təhsilə, savada önəm verirdilər.**

Dünən yayılan xəbərdə isə Şabranda 6 nəfərin birləşərək bir ruhi xəstəni müalicə adı ilə öldürməsindən bəhs edilir. Bu adamlar fanatikcəsinə inanıblar ki, adamı yerə yıxıb çubuqlamaqla müalicə etmək, onun canındakı cini çıxarmaq olar. Cəhalətin dibi.

Cin çıxaranların telekanallarda boy göstərdiyi, tolk-şoulara qatıldığı, öz peşələrini sərbəst şəkildə təbliğ etməyin olacağı buydu.

Bu hadisə istənilən rayonda baş verə bilərdi. Zatən, baş verir də. Hər gün minlərlə adam falçı yanına, cindara, ocaqlara şəfa tapmaq ümidilə gedir, aparılır, sadəcə, ölüm hadisələri baş vermir deyə biz bunlardan xəbər tutmuruq.

Bu ölkədə yüz minlərlə adam var ki, ömrünün 30-40 ilini tibb elminə həsr etmiş, minlərlə kitab oxumuş, onlarla kitab yazmış professorlara, akademiklərə güvənmir, amma türmədən dünən çıxmış, heç bir təhsili, iş-peşəsi olmayan, bundan sonrakı həyatını dələduzluqla keçirməyə qərar vermiş, "tüpürcəyi şəfalıdır" deyə adını çıxarmış birinə etimad edir.

Mat qalmalı işdir: nədən insanlarımız 21-ci əsrin 18-ci ilində, dünyanın dəmirdən, rezindən adam düzəldib yeritdiyi, danışdırdığı bir vaxtda hələ də cinlərə, iblislərə, mələklərə və sair fövqəlbəşərlərə inanırlar?

Elm bu qədər inkişaf edib, modern texnologiyalar vasitəsilə göyün yeddinci qatını, okeanın dibini tədqiq etmək mümkündür, amma milyonlarla insan hələ də fövqəlbəşər varlıqların mövcudluğuna, onların insanların həyatına maneə törətdiyinə inanır, onlarla mübarizə aparırlar.

Birdəfəlik anlamaq lazımdır: dünyada belə varlıqlar yoxdur, heç vaxt da olmayıb. Bu, min illər öncə elmsiz, cahil insanların uydurduğu şeylərdir. Hərgah fövqəlbəşər varlıqlar olsaydı, elm onların özünü, izini, görüntüsünü ortaya çıxarardı.

Kimlərinsə gözünə kabusların görünməsinin sırf elmi izahı var: onlar psixikası pozulmuş insanlardır, sadəcə, onları qara basır, gözlərinə xəyalətlər görünür. Həyatda isə elə varlıqlar olmadığı üçün ruhi cəhətdən sağlam insanların gözünə görünmürlər. Bu qədər bəsit.

Amma kimə deyirsən? İmtahan üçün, adı çıxmış falçılardan, cindarlardan birinin qəbuluna gedək, növbə gözləyən onlarla adam görəcəyik. Onların bir çoxu ilk "tibbi instansiya" olaraq falçıya, "ocağ"a gələnlər, bəziləri isə hər yerdən əlacları kəsildikdən sonra pənah gətirənlərdir.

Bunu da birdəfəlik anlamaq lazımdır ki, heç bir ocaq, pir, türbə, ibə, ziyarətgah xəstələrə şəfa verməyə gücündə deyil. Elə yerləri yalnız daxili rahatlıq, mənəvi saflıq, bir də turizm məqsədilə ziyarət etmək olar, ancaq məzarlardan, yastı-yapalaq tikililərdən şəfa, nicat, müşküllərə çarə gözləmək əbəsdir.

Bunun adı cəhalətdir, xurafatdır. Sekulyarizmi prioritet sayan ziyalılar yüz illərdir deyirlər, yazırlar, amma bir cahil çıxır, onların yüzillik zəhmətini bir absurd "məziyyəti" ilə puç edir.

Mirzə Fətəli Axundovun 150-170 il öncə, Əbdürrəhim bəy Haqverdiyevin, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin, digər işıqlı ziyalılarımızın 100-120 il əvvəl yazıb ifşa etdikləri nadanlığın, cəhalətin günümüzdə hələ də aktual olması gerçəkdən də fenomendir.

İnsanlar hələ də şeyx nəsrullahlara inanır, bənzər dələduzların toruna düşürlər. Ali təhsilli, məşhur adamlar arasında belələrinə sərvət yedirənlər, bu dələduzlara inanıb ailəsini dağıdanlar, ya da ailəsini qorumaq üçün var-yoxdan çıxan, amma uğurlu nəticə ala bilməyən yüzlərlə şəxs var.

Görünür, bu sahədə vəziyyəti nəzarət altına almağın yükü təkcə maarifçi ziyalıların üzərinə düşməməlidir, hüquq-mühafizə orqanları da insanlar arasında elmi cəhətdən inkar olunan müalicə üsullarını (dua yazmaqdan çildağ etməyə qədər) təbliğ edən, adamların dini inancından yararlanan dələduzlara qarşı təqibi artırmalıdır.

Bir şey gün kimi ortadadır ki, özbaşına qoyulanda şeyx nəsrullahlar, ibrahimxəlillər, ağac altına tunel çəkən, şam yandırıb pir açanlar meydan sulayır.



# Müqəddəs inəklər

Zamin HACI
zaminhaci@gmail.com

"Əgər dünyadakı canlıların say nisbətinə baxsaq, belə çıxır Tanrı ən çox mikrob və həşəratları sevir"
*(Konrad Loren, bioloq)*

**Dünən bizdə Konstitusiya günü bayramı idi, millətimiz ana qanunun qəbulunun növbəti ildönümü münasibətilə bir-birini səmimi qəlbdən təbrik etdi. Avtobusların qabağına konstitusiya kitabçamız taxılmışdı. Bulvarda uşaqlar konstitusiyanın şəklini asfalta çəkdilər, valideynlər bir-birinə qoşulub yallı getdilər, ağsaqqallar sevindiklərindən dombalaq aşdılar, ağbirçəklər yaşmandılar, şəhərimizin nəğməli qonaqları bizim ana qanunun şərəfinə şaqraq mahnılar oxudular.**

Biz bu sənədin qədrini bilməliyik, bilirik də. Dünyada elə dövlətlər var heç onların konstitusiyası yoxdur, uzaqdan bizə baxıb həsəd aparırlar, ağızlarının suyunu axıdırlar. Bunlardan qeyd edə bilərik Böyük Britaniyanı *(konstitusiyası olmayan dövlətə necə də utanmazcasına "böyük" ayaması yapışdırıblar),* Kanadanı, İsveç, İsrail və Yeni Zelandiyanı *(bunlar da "yeni" sözünü haqq etmirlər - bizim Yeni Azərbaycana baxanda).* Gördüyünüz kimi, konstitusiya olmayanda dövlətin tərəqqi tapması olduqca müşkül məsələdir. Müdriklər demişkən, yüz fikir bir borcu, min qanun bir konstitusiyanı əvəz eləməz.

Bu arada, noyabr ayı ölkəmizdə saysız bayramlarla yadda qalmışdır, bunlardan qeyd edə bilərik 9 noyabr Bayraq günü və 17 noyabr Milli Dirçəliş gününü. Təklif edirəm, biz noyabrın adını dəyişib Bayram ayı qoyaq. Həm ona görə ki, bunun adı düzgün qoyulmayıbdır, "november" latınca "doqquz" deməkdir, lakin noyabr ilin on birinci ayıdır. Elə bil Biləcəridə dükan açıb adını "Monako" qoymusan. Həm də noyabr ayında hələlik heç bir rayonumuz işğal edilməyibdir, faciəsi azdır, əsl bayram ayıdır. İndi söz əlaqədar təşkilatlarındır.

Müdriklərdən, fikirdən söz düşmüşkən, noyabrda bir dənə də beynəlxalq bayram vardır, YUNESKO xətti ilə qeyd olunur. Bu, noyabrın 3-cü cümə axşamına düşən Beynəlxalq Fəlsəfə Günüdür. İndiki təqvimlə 15 noyabra düşür. Filosof - fikirləşməyi sevən adama deyirlər, bizdə fikirləşməyə o qədər ehtiyac olmur, hökumət özü hər şeyi bizim əvəzimizdən fikirləşib tapıbdır. Açığı, fikirli olmaq bizdə pis sayılır, bu haqda çoxlu el məsəlləri vardır, özünüz fikirləşsəniz, dərhal taparsınız. Bu baxımdan, boşluğu doldurmaq üçün - hər halda, beynəlxalq bayramdır, dünya bizə baxır - Hindistandan ünlu bir fikir adamını qonaq çağırmışdıq. Adam yoqa təliminin görkəmli ustalarından imiş, özü də əsl bizim adamdır: vaxtilə Hindistanda arvadını öldürməkdə suçlanmışdır. Nə isə, ağ saqqallı yoqa dədənin mühazirəsindən sitatları oxuyun: "İnsan bəyənmədiyi halları əslində özü yaradır". Əlbəttə. Aclıq, işsizlik, korrupsiya hamısı yetim-yesirin işidir. Başqa sitat: "İnsan on il qabaqkı hadisənin iztirabını indi çəkir". Mükəmməldir. Doğrudan indiki bəlalarımızın hamısı AXC-Müsavat dövründə yaranıbdır. Davam edək: "İnsan dünyanı özünə deyil, özünü dünyaya uyğunlaşdırmalıdır". Hərçənd bu fəlsəfəni azərbaycanlılar yoqa olmadan da dərk ediblər, hamı başını aşağı salıb yaşayır. Ağsaqqalın başqa müdrik söhbətləri də var idi, heyf yerimiz azdır. İnşallah, bu temaya yenidən qayıdarıq. Bilet alıb qəbuluma yazılın, hamısını deyim.

Tema açılmışkən, təzəlikcə Hindistanda bir bayram mərasimindən videolara məmnuniyyətlə baxdıq. Sən demə, orada camaat uzanır, inəklər onların belindən keçir. Bu zaman kim şikəst olsa, ölsə, tanrı Şivanın yanında böyük hörmət qazanırmış. Məncə, bu bayramın oxşarını bizdə də düzəltsək müdrikləşər, yoqa təliminə, Oşoya, Budda müəllimə daha yaxın olarıq. Hərçənd dəli şeytan deyir ki, bu bayramın da analoqu bizdə çoxdan vardır, sadəcə, bizdə camaatı yerə uzadıb belindən "Galenvaqen"lə keçirlər. Özü də ildə bir gün yox, faktiki hər gün. Dəliyə hər gün bayramdır axı - atalarımız demişkən.

Bir də ikiayaqlı inəklər var, onlar vaxtaşırı camaatı tapdalayır, nəticədə biz Şivaya qovuşuruq.




# Paşinyan Parisdən Bakı və Ankaraya "dil" uzatdı - cavab gecikmədi

## İrəvanın bitməyən ikinci dövlət xülyası, saxta "soyqırım" röyası, Qarabağ iniltisi; düşmən müharibəni günbəgün yaxınlaşdırır; ermənilərin xoşbəxtliyi Rusiyaya və Qərbə yox, ilk növbədə Türkiyə və Azərbaycana bağlıdır...

**Ermənistanın inqilabçı baş nazir əvəzi Nikol Paşinyanın Avropaya səfər dəvətlərinə ifrat həssas olduğu sirr deyil. Özünü guya artıq demokratik Ermənistanın rəhbəri kimi addımbaşı gözə soxub Avropa liderləri ilə, NATO rəsmiləri ilə şəkil çəkdirməkdən ötrü əldən gedən, bundan xüsusi zövq alan Paşinyana bu dəfə Parisdən dəvət gəlib və o da bu fürsəti təbii ki, qaçırmayıb. Fransa paytaxtında Birinci Dünya müharibəsinin bitməsi ilə bağlı imzalanmış sülh müqaviləsinin 100-cü ildönümü mərasiminə Paşinyan da qatılıb.**

Ancaq erməni erməni olmazdı, əgər belə fürsətlərdən ən əvvəl Türkiyəyə qarşı saxta soyqırım, Azərbaycana qarşı isə torpaq iddiaları ilə çıxış etməyəydi, iki qardaş ölkə əleyhinə sərsəm iftiralar səsləndirməsəydi. Xüsusən də Azərbaycana qarşı növbəti sərsəmləmələr diqqət çəkib.

**"Yeni Müsavat"ın erməni KİV-ə istinadən verdiyi xəbərə görə, Paşinyan çıxışında deyib:** "Birinci Dünya müharibəsinin dərslərindən biri də Vudro Vulsonun məşhur 14 bəndində əksini tapmış xalqların öz müqəddəratını təyin etmə hüququ haqda ifadədir - hansı ki, sonralar BMT Nizamnaməsinə və Helsinki Yekun Aktına daxil edilib və müasir dövlətlərin təxminən yarısının müstəqilliyi üçün əsas rolu oynayıb... Birinci Dünya müharibəsi zamanı Antanta hökumətləri "bəşəriyyətə qarşı cinayət" termini işlədib. Bununla da Osmanlı İmperiyası hökuməti tərəfindən 1.5 milyon ermənin "məhv edilməsi"ni (dırnaqlar bizimdir - red.) lənətləyiblər. Sonradan bu dəhşətli cinayət XX əsrin ilk genosidi adlandırılıb".

*****

Belə iftira və ittihamdan sonra rəsmi İrəvanın Türkiyəyə sərhədləri qeyd-şərtsiz açmağa çağırış eləməsi yumşaq desək, siyasi riyakarlıqdır. Yada salaq ki, az öncə Nikol Paşinyan Ankaranı heç bir ön şərt qoyulmadan əlaqələri bərpa eləməyə səsləmişdi. Halbuki Ermənistan indiyədək Türkiyəni heç dövlət kimi tanımayıb və konstitusiyasında qardaş ölkəyə qarşı, üstəlik, açıq mətnlə ərazi iddiası yer alıb (Ağrıdağ məsələsi).

**Gözlənildiyi kimi, Paşinyan Parisdən Bakıya da "dil" uzadıb. Çıxışdan başqa bir sitat:** "Burada - Fransada bir şeyi mən xüsusi vurğulamağı zəruri sayıram: cəmi bir neçə gün öncə Fransa bu məsələdə öz prinsipial mövqeyini təsbit eləmiş oldu - yeni Kaledoniya xalqı referendum keçirmək imkanı qazandı. Təəssüf ki, öz müqəddəratını azad təyinetmə hüququna yanaşma seçmə xarakteri daşıyır. Yəni birinə olar, birinə olmaz. Məhz bu səbəbdən "Dağlıq Qarabağ xalqı"nın (dırnaqlar bizimdir - red.) öz taleyini müəyyən eləmək hüququ üçün on illərdir apardığı mübarizə lazımi hüquqi həllini tapmayıb. XXI əsrdə əsla imkan verməmək olmaz ki, xalqın öz müqəddəratını reallaşdırmaq hüququnu həyata keçirmək istəyi onun bioloji mövcudluq təhlükəsinə çevrilsin".

Yəni guya Azərbaycan Dağlıq Qarabağ ermənilərinə qarşı genosid həyata keçirməyə hazırlaşır. Bunu da Dağlıq Qarabağda etnik təmizləmə aparmış, Xocalı soyqırımı törətmiş bir işğalçı ölkənin - Ermənistanın rəhbəri deyir. Yeri gəlmişkən, Paşinyan BMT Baş Məclisinin son sessiyasındakı çıxışı zamanı da Azərbaycan qarşı eyni iftiralar səsləndirmişdi. Görəsən bir xalq, konkret halda ermənilər öz müqəddəratını neçə dəfə təyin eləməlidir? Yoxsa dünyanın 1 nömrəli "əzabkeş xalqı" kimi ermənilərə istisnalar, məxsusi imtiyazlar tanınmalıdır?

Əlbəttə, yox. BMT Nizamnaməsində də, Helsinki Yekun Aktında da xalqın yalnız bir dəfə bu hüquqdan istifadəsi nəzərdə tutulur. Erməni xalqı isə artıq ondan istifadə edib və qədim türk torpaqlarında "Ermənistan" adında formal da olsa dövləti var.

*****

**Bu arada Paşinyana Bakıdan cavab gecikməyib.**

"Ümid edirik ki, Ermənistanın baş naziri vəzifələrini yerinə yetirən Nikol Paşinyan anlayır ki, Paris Sülh Forumunda etdiyi çıxışı Ermənistanın xarici siyasəti ilə tamamilə ziddiyyət təşkil edir. Məhz Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal edib və tarixən Dağlıq Qarabağda yaşayan yüz minlərlə Azərbaycanlını öz evlərinə yaşamaq fundamental hüququndan məhrum edib". Musavat.com-un məlumatına görə, bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Paşinyanın Parisdəki çıxışını şərh edərkən deyib.

"Məgər öz müqəddəratını təyin etmə eyni bölgədə yaşayan digər etnik qruplara qarşı etnik təmizləmənin həyata keçirilməsi deməkdir? Məgər beynəlxalq hüququn aliliyi əraziləri hərbi işğal etmək və sonra da zor gücünə işğalın nəticələrini həll yolu kimi qəbul etdirmək deməkdir? Bu suallara, elə cənab Paşinyanın çıxışında istinad etdiyi fundamental prinsiplərin özü cavab verir. Bunun üçün BMT Nizamnaməsini və Helsinki Yekun Aktını oxumaq kifayətdir. Oxumaq istəməyənlər və ya oxuduqlarını anlamaq istəməyənlər üçün sitat gətirirık: "Dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etməsi hüququna hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun olaraq hörmət etməlidir" - Abdullayeva qeyd edib. "Bölgənin və Ermənistanın özünün daha yaxşı gələcəyi bilavasitə, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalına son qoyulması və məcburi köçkünlərin öz evlərinə geri qayıtması ilə əlaqədardır" - XİN rəsmisi əlavə edib.

*****

Nikol Paşinyanın budəfəki demarşının həm də Düşənbədə onunla Azərbaycan prezidenti İlham Əliyev arasında əldə olunan kövrək anlaşmadan sonraya təsadüf etməsi də maraq doğurur. Bununla o, faktiki, anlaşmanı sıfırlamış olur. Çünki erməni tərəfinin Qarabağ məsələsində bu cür maksimalist, avantürist və həyasız mövqeyi yalnız müharibəni yaxınlaşdırır, əsla ədalətli sülhü yox.

Düşmən ölkə rəhbərinin Bakı və Ankaraya belə "dil" uzatmaları olsa-olsa, işğalçı ölkədən kütləvi köçün və onun olan-qalan xalqının durumunu daha da ağırlaşdıracaq. Ermənistanın nə blokada şəraitindən, nə də Rusiyanın girovluğundan qurtulmasına imkan verməyəcək. Nəticə etibarilə işğalçı ölkədən kütləvi köç səngiməyəcək, iqtisadi islahatlar heç vaxt baş tutmayacaq, iqtisadi dolanışıq yaxşılaşmayacaq, demək, Ermənistanın demokratikləşməsi də uzaq perspektivə qalacaq.

Bu mənada Paşinyanın 9 dekabr seçkilərindən sonra, daha dəqiqi, eyforiya və kütləvi psixoz bitəndən sonra Ermənistanın ən ağır problemləri ilə başa-başa, təkbətək qalacağı şübhə doğurmur. Ötən 30 ilin acı təcrübəsi göstərir ki, bu problemlər qonşu Azərbaycan və Türkiyə ilə əlaqələr normallaşmadan aradan qalxa bilməz. Yolu bəlli. Ermənilərin xoşbəxtliyi Rusiyaya, Qərbə yox, ilk növbədə Türkiyə və Azərbaycana bağlıdır. Bədxah qonşular üçün 30 ilin ən böyük dərsi də elə budur. Qalır nəticə çıxarmaq...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

# Növbəti müharibəyə hazırlaşan liderlərin 100 illik sülh qutlaması...

**Bazar günü, noyabrın 11-də Fransanın paytaxtı Parisdə I Dünya müharibəsinin başa çatmasının 100 illiyi münasibətilə rəsmi mərasim keçirilib. Parisin "Zəfər Tağı" və "Naməlum əsgərin abidəsi" qarşısında təşkil olunan tədbirdə 70-dən çox ölkənin dövlət və hökumət rəhbərləri iştirak edib.**

## Bəşəriyyət hələ də müdrik deyil; I və II dünya müharibələri bir çoxlarına dərs olmayıb...



Noyabrın 11-də səhər saat 11-də bütün Fransa ərazisində şeypurlar çalınaraq müharibənin bitdiyini bir daha elan edib. Tədbirdə ABŞ prezidenti Tramp, Almaniya baş naziri Merkel, Rusiya prezidenti Putin, Türkiyə prezidenti Ərdoğan da iştirak edib. Rusiya prezidenti ənənəvi olaraq tədbirin açılışına gecikib və 70-dək ölkənin dövlət və hökumət başçıları açılış üçün Putini gözləməli olub.

Fransa prezidenti Makron çıxışında millətçiliyi tənqid edərək "vətənpərvərlik və əxlaqi dəyərlərə xəyanət" kimi təqdim edib. O, millətçiliyin vətənpərvərliyin əksi olduğunu bildirib. 20 dəqiqə davam edən çıxışında Makron bildirib ki, "başqalarına hörmət etmədən, sadəcə, öz maraqlarımızı güdsək, o zaman bir xalqın ən önəmli dəyəri, ona həyat verən, onu ayaqda saxlayan dəyəri əldən verərik. Bu dəyər əxlaqdır".

Tədbirdən sonra liderlərin şərəfinə Yelisey sarayında rəsmi ziyafət verilib. Yeri gəlmişkən, Parisdə ABŞ və Türkiyə prezidentləri də ikilikdə görüşüblər. Ancaq bu mərasimdə bir neçə xüsusi olaraq diqqət çəkən məqam olub.

Parisdə 11 noyabrda keçirilən tədbir Birinci Dünya müharibəsinin başa çatmasına həsr olunub. Fransa prezidentinin də qeyd etdiyi kimi, bəşəriyyət 100 il əvvəl 4 il davam edən ən qanlı bir savaşın başa çatmasını qeyd edib. Ancaq Birinci Dünya müharibəsindən sonrakı tarix göstərdi ki, bəşəriyyət o qədər də müdrik deyil, öz xəta və günahlarından belə nəticə çıxara bilmir. Çünki cəmi 21 il sonra dünya daha dəhşətli bir müharibə ilə üzləşdi, İkinci Dünya müharibəsi başladı. Əgər Birinci Dünya müharibəsi ümumilikdə 10 milyondan çox insanın ölümü, 20 milyonun yaralanması və 7 milyondan çox insanın isə itkin düşməsi ilə nəticələndisə, İkinci Dünya müharibəsinin itkilərinin sayı bundan iki dəfə çox idi, 73 milyon rəsmi rəqəmlərə görə, insan ölmüşdü.

İkinci Dünya müharibəsindən sonra müasir dünya nizamı, BMT kimi təşkilatlar qurulsa da, İkinci Dünya müharibəsindən keçən 73 il ərzində planet çox amansız və dəhşətli müharibələrlə üzləşdi. Maraqlıdır ki, noyabrın 11-də Parisdə "Zəfər Tağı" qarşısında toplaşıb dünyanın böyük bir müharibədən qurtulmasını qeyd edən dövlət və hökumət başçıları özləri növbəti dünya müharibəsini başlamaq ərəfəsindədirlər. ABŞ və Rusiya arasında münasibətlər, eləcə də ABŞ və Rusiyanın ayrılıqda dünyada apardıqları savaş və münaqişələr, silahlanma və qarşılıqlı münasibətlər növbəti dünya müharibəsinin xəbərçisidir. Baxmayaraq ki, bu günə qədər bir neçə dəfə artıq Üçüncü Dünya müharibəsinin başladığını anons edənlər olub.

Əslində Fransa prezidenti üstüörtülü də olsa buna işarə etdi. Sürətlə genişlənən millətçi çağırışlar, radikal bəyanatlar dünya üçün heç də yaxşı gələcək vəd etmir. Yeri gəlmişkən, ötən həftə Fransa prezidenti Avropa Birliyinin "kiber ordusunu" qurmağa çağırıb. Söhbət Tramp zamanında Vaşinqton administrasiyasının Amerika maraqlarını önə çəkən siyasətini daha da qabarıq büruzə verməsidir. ABŞ-ın Avropa Birliyi, Çin və Kanadaya qarşı sərt vergi siyasəti Çinlə yanaşı ənənəvi müttəfiqləri olan Kanada və AB-ni də narazı salıb. Rusiya və İrana qarşı sərt sanksiyalar isə faktiki olaraq Vaşinqtonun müttəfiqləri üçün zərbədir.

Bu mənada Parisdə toplanan liderlərin bir cərgədə düzülüb 100 il əvvəlki sələflərinin hərəkətlərindən üzüntü duyan və təəssüflənən görüntüləri aldadıcıdır. Əslində mahiyyətdə bugünkü dünya liderləri də 100 il əvvəlkilərdən geri qalmır, sadəcə, şərtlər bir qədər dəyişib. Paris tədbiri Makronun qeyd etdiyi kimi, dünyanın hələ də çətin sınaq qarşısında olduğunu bir daha göstərdi. Bəşəriyyət bu dəfə müdrik ola biləcəkmi? Bunu da zaman göstərəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Paşinyana KTMT xəbərdarlığı - Moskvada onu böyük imtahan gözləyir

## Erməni müxalifətinin əlinə fürsət düşüb; rusiyalı və azərbaycanlı politoloqlardan maraqlı şərhlər



**Ötən həftə Astanada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sammitində qurumun baş katibi vəzifəsinə Ermənistanın təqdim etdiyi namizədin qəbul edilməməsi ermənimüxalifətinə baş nazir əvəzi Nikol Paşinyana qarşı hücuma keçməyə fürsət verib.**

Paşinyanın hakimiyyətdən devirdiyi Respublika Partiyasının seçki siyahısına başçılıq edən keçmiş müdafiə naziri Vigen Sərkisyan deyib ki, Ermənistan KTMT-də ciddi iflas ərəfəsindədir.

"Hökumət əlindən gələni etməlidir ki, dekabrın 6-da Sankt-Peterburqda KTMT baş katibi postunu itirməsin. Əgər bu baş versə, hökumət üçün tam iflas olacaq", - deyə o qeyd edib. V.Sərkisyan bildirib ki, bu riski KTMT baş katibi Yuri Xaçaturva qarşı cinayət işi qaldıranda düşünmək lazım idi.

**KTMT dövlət başçılarının sammitindən sonra isə Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycanın Minskdəki səfiri Lətif Qəndilovu qəbul edib. Lukaşenko görüşdə bildirib ki, rəsmi Minsk qurumun baş katibi vəzifəsinə üç namizəd təklif etməyə hazırdır.**

**"Astana görüşünün nəticələri Ermənistanın KTMT-dəki fəaliyyətinin tam iflası oldu". Bu sözləri isə axar.az-a açıqlamasında KTMT ölkələri liderlərinin Astana görüşünü şərh edən rusiyalı politoloq Yevgeni Mixaylov deyib:** "Bu haqda əvvəllər hətta ağlımızdan da keçməzdi. Bütün hallarda Ermənistan aprel hadisələrinə qədər Rusiyanın bir çox sahələrdə tamhüquqlu müttəfiqi sayılırdı. Bugünkü gün daxili siyasi qeyri-sabitlik və diplomatik nöqsanlar səbəbindən Ermənistanın təsiri KTMT-nin digər üzvləri tərəfindən faktiki olaraq sıfra endirilib. Xaçaturovun digər erməni namizədlə əvəzlənməsindən imtina edilməsinin başlıca səbəbi budur ki, Ermənistanın hara istiqamətləndiyi bəlli deyil. Əgər o, Qərbə istiqamət alacaqsa, onda təşkilatda əsas rol oynayan Rusiyanın maraqlarının satılmasını müşahidə edə bilərik".

**Rusiyalı politoloqa görə, Ermənistanda Rusiya və Belarus əleyhinə provokasiya hər an mümkündür:** "Çünki biz vaxtaşırı olaraq Ermənistandan Azərbaycanın Rusiya və Belarusdan silah alması ilə bağlı narazılıq müşahidə edirik və bu istiqamətdə neqativ informasiyalar yayılır".

**Azərbaycanlı politoloq Natiq Miri isə "Yeni Müsavat"a şərhində bildirdi ki, təcrübəsiz Paşinyan hökuməti KTMT-nin baş katibinə cinayət işi açıb onun vəzifədən götürülməsi tələbini ortaya qoyandan sonra Ermənistana qurumun üzvü olan dövlətlərin narazılığı müşahidə olundu:** "Çünki KTMT-yə rəhbərlik edən generalın erməni də olsa cinayətkar elan olunması və vəzifədən çıxarılıb Ermənistana verilməsi tələbi dolayısı ilə KTMT-yə meydan oxumaq idi və bu təşkilatın adına, imicinə qarşı biabırçı bir hadisə idi. Bu isə quruma üzv olan dövlətlərdə ciddi bir qıcıq yaratdı. Ona görə də bəlli idi ki, Ermənistan rəhbərliyi cəzalandırılacaq. Ermənistanın təqdim etdiyi namizədin qəbul edilməməsi və rotasiya məsələsinin ortalığa çıxarılması İrəvana verilən cəzadır. Rotasiya məsələsinin ortalığa atılması bəhanədən başqa bir şey deyil. Paşinyanın Qərbə meyllənən siyasətə üstünlük verməsi də belə bir cəzanın verilməsində rol oynadı. Rusiya Paşinyana münasibətdə tərəddüd etməkdədir. Paşinyana konkret seçim etmək üçün təzyiq edilir. Ermənistanda isə hazırda böyük bir hakimiyyət boşluğu müşahidə edilir. 9 dekabr parlament seçkilərinə qədər belə davam edəcək. O zamana qədər Rusiya Paşinyanı KTMT meydanında da sıxacaq. Kremldə Ermənistana mənfi bir rəy açıq sezilir. Rusiya parlament seçkilərinin nəticəsini gözləyəcək. Seçkidən sonra Paşinyan Moskvaya dəvət olunacaq və ondan Ermənistanın istiqaməti ilə bağlı konkret seçim tələb edəcəklər. Paşinyan hökumətinə Rusiyanın və KTMT-nin qəti mövqeyinin necə olacağı da məhz bundan sonra dəqiq bilinəcək. Paşinyan seçkidə qalib gələcəksə, Moskvada onu böyük bir imtahan gözləyir. KTMT-də son baş verənlər Paşinyana xəbərdarlıqdır. Ona bildirilir ki, mövqeyin bizdən yana olmasa, bu, sənə tətbiq ediləcək cəzanın başlanğıcıdır".

**Bəs KTMT-də Ermənistanın istəklərinin yerinə yetirilməməsi hansısa şəkildə Azərbaycanın xeyrinədirmi?**

**Politoloqun sözlərinə görə, baş verən məlum məsələlər o mənada Azərbaycanın əlini gücləndirir ki, Ermənistanın dayanıqsız və etibarsız ölkə olduğu sübuta yetir:** "Bu isə Azərbaycanın mövqelərinin bir qədər möhkəmlənməsi baxımından çox mühüm məsələdir. Ermənistan haqda KTMT-də dayanıqsız ölkə imicinin formalaşması istənilən halda Azərbaycanın postsovet məkanında mövqelərini bir qədər də gücləndirir. Diqqət edirsinizsə, artıq Rusiyada Azərbaycanın xeyrinə danışan xeyli sayda siyasətçilər, siyasi ekspertlər yaranıb. Bir neçə il öncə belə deyildi. Artıq hətta Kremldə belə, Azərbaycanın xeyrinə olan mövqelər ortaya qoyulmaqdadır. Azərbaycanın mövqeyi güclənirsə, bu, Dağlıq Qarabağ probleminin həlli ehtimalını artırır. Ona görə də Azərbaycan gözləmə mövqeyində deyil, daha da aktiv və hücum xarakterli siyasətə üstünlük verməlidir. Çünki belə olduğu halda Ermənistan rəhbərliyi Azərbaycanla tərəzidə bərabər səviyyədə siyasət yürüdə bilməyəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Uşaqlara sağlam inkişafları üçün aylıq müavinət verilməlidir"

## Fazil Mustafa: "Bu durumda evə hər hansı bir gəlir daxil olmursa, uşaq normal qidadan, geyimdən, təhsildən, istirahətdən məhrum olmalıdır?"

**Noyabrın 13-də Milli Məclisin plenar iclasında Nazirlər Kabinetinin iştirakı ilə 2019-cu ilin dövlət büdcəsi zərfi müzakirəyə çıxarılacaq və üç gün ərzində müzakirə olunacaq. Ötən həftə yeni tərkibdə Azərbaycan hökuməti ilk dəfə Milli Məclisdəki büdcə məsələlərində iştirak etdi. Budəfəki müzakirələr əvvəlkilərdən ciddi şəkildə fərqləndimi?**

**Deputat Fazil Mustafa** bununla bağlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, builki büdcə müzakirələri forma baxımından əvvəlki illərdəkindən ciddi fərqlənmədi: "Rəqəmlərdə, mülahizələrdə təbii ki, fərqliliklər olmalıydı, prosedura yeniləşməsi isə gözlənildiyi kimi, baş vermədi. Fikrimcə, büdcə müzakirələrində 4-5 komitəni bir yerə yığaraq iki saat müddətində məsələləri çözmək olduqca çətindir. Üstəlik də çıxış üçün ayrılan 5 dəqiqə müddət də qlobal bir sənədlər toplusu barədə keyfiyyətli mövqe sərgiləməyə imkan vermir. Uzaqbaşı mühüm olan 3-4 problemə toxunmaq olur ki, burada da iştirak edən deputatların heç yarısının danışmaq imkanı olmur. Müsbət hal odur ki, müxalif mövqe sərgiləyən deputatlara bütün hallarda çıxış haqqı tanınır, ən azı vacib saydığımız bir neçə məsələyə diqqət yönəltməmiz mümkün olur. Hər halda, sessiyada 10 dəqiqə danışmaq imkanı büdcənin təhlili və təkliflər üçün daha münasibdir və bu imkandan səmərəli istifadə etməyə çalışacağıq".



**Maraqlıdır, hökumət plenar iclasa hansı layihə ilə gələcək? Deputatların təklifləri nəzərə alınacaqmı? F.Mustafa:** "Hökumətin plenar iclasa gətirəcəyi layihə də komitədə müzakirə olunandan çox güman ki, fərqlənməyəcək. Son vaxtlar həm Nazirlər Kabinetinin hesabatı, həm də büdcə müzakirələri ilə bağlı çıxışlarda səsləndirilən fikirlərə icra qurumlarının təmsilçilərinin həssas yanaşması müsbət tendensiyadır. Sonuncu komitə iclasında maliyyə naziri Samir Şərifovun səsləndirilən hər bir tezisə əhatəli cavab verməsi də göstərdi ki, Milli Məclisdəki müzakirələrə olduqca ciddi yanaşılır. Həm də nazir təmsil etdiyi sahəni və təqdim etdiyi sənədi dərindən biləndə, sağlam fikirləri daha rahat dəyərləndirə bilir. Təkliflərin bir çoxu əsaslı olsa belə, real imkanlara uyğun gəlmədikdə, onun nəzərə alınması da çətin olur. Deputatın əsas vəzifəsi cəmiyyətimiz üçün vacib olan hansısa problemi ictimailəşdirməkdir, buradan o tərəfə isə səlahiyyətlər məhdudlaşır. Əslində parlament müzakirələri daha effektli aparılsaydı, alternativ layihəyə, tənqidi tezislərə daha çox imkan tanınsaydı, hökumətin özü üçün də səslənən faydalı fikirlərdən qidalanmaq imkanı geniş olardı. İxtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının isə büdcə müzakirələrinə cəlb olunması ənənəsinin yoxluğu da bu prosesin səmərəliliyini xeyli azaldır".

Qeyd edək ki, komitə müzakirələrində bir sıra deputatlar konkret təkliflər səsləndirdilər. F.Mustafanın uşaq pulunun bərpası barədə təşəbbüsünə maliyyə naziri Samir Şərifovun reaksiyası diqqət çəkdi. Nazir məsələyə baxılmasını istisna etməsə də, başqa ölkələrə istinad edilməsi ilə razılaşmadı.

**F.Mustafa bununla bağlı səsləndirdiyi təklif və nazirin reaksiyası barədə aşağıdakıları söylədi:** "Təklifim bu idi ki, heç bir bəhanəsiz Azərbaycanda uşaqların sağlam inkişafı və aztəminatlı ailələrin maddi yükünün azaldılması üçün uşaqlara normal məbləğdə aylıq müavinət verilməlidir. Hökumət 2018-ci ildə uşaqlar üçün yaşayış minimumunun aylıq dəyərini 154 manat müəyyən etmişdi. Müstəqil hesablamalara görə, yaşayış xərclərinin ən azı 75-80%-i insanların minimum fizioloji normalara uyğun ərzaqla, həmçinin minimum səviyyədə geyimlə təminatı xərclərini əhatə edir. Yəni bir uşağın aylıq minimum qida və geyim təminatı üçün təqribən 120-130 manat tələb olunur. Bu durumda evə hər hansı bir gəlir daxil olmursa, uşaq normal qidadan, geyimdən, təhsildən, istirahətdən məhrummu olmalıdır? Başqa ölkələrdə əhalinin artımı üçün bu müavinətin stimullaşdırıcı vasitə kimi verilməsinin bizə uyğun gəlmədiyini bəhanə etmək doğru deyil. Müharibə riski altında olan ölkələrdə uşaq artımı probleminə daha həssas yanaşmaq lazımdır. Keyfiyyətsiz qidaya, maddi sıxıntılara, habelə idman tibbi infrastrukturunun əlçatan olmamasına görə Azərbaycanda uşaqların böyük çoxluğu sağlamlıq standartlarına uyğun mühitdə yaşamırlar. Biz təklif etdik ki, heç olmazsa normal gəliri olmayan ailələrin 6 yaşınadək uşaqlarına bu müavinət verilməlidir. Sonrakı mərhələdə isə digər yaş kateqoriyasından olan uşaqları da əhatə etmək olar. Hər halda, problemin ictimailəşdirilməsi onun çözülməsi üçün müəyyən ümidlər yaradır".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Partiyalar REAL-a 40 min imza toplamaqda kömək edəcəkmi...

## Müxalif təşkilatlar müraciət olunacağı halda təşəbbüsə dəstək verəcəklərini bildirir

**REAL Partiyası yaxın günlərdə üç qanun layihəsinin Milli Məclisə təqdim edilməsi üçün konstitusiyanın 96-cı maddəsini əsas götürərək imzatoplama kampaniyasına başlayacaq. Qanun layihələri Bakı merinin seçki yolu ilə seçilməsi, devalvasiyadan doğan kredit faizləri probleminin ədalətli həlli, dövlətin ali məktəblərdə təhsil alan tələbələrin təhsil haqqını tam ödəməsi ilə bağlıdır.**

REAL-a bu qanun layihələrini qanunverici orqana təqdim etmək üçün 40 min imza lazımdır. Bu imzaların yığılmasında digər siyasi partiyaların dəstək verib-verməyəcəyi, həmçinin REAL-ın bunun üçün siyasi qurumlara müraciət edib-etməyəcəyi yönündə müzakirələr açılıb.

**ADP sədri Sərdar Cəlaloğlu REAL-ın təşəbbüsünü yüksək dəyərləndirir:** "Qaldırılan məsələlər xalqımızın maraqlarına tam cavab verir. Əgər üç qanun layihəsinin təqdimatı üçün REAL imzatoplama kampaniyasında iştirakımız üçün bizlərə müraciət edərsə, can-başla bu kampaniyada iştirak edəcəyik. Lazım olacaq qədər imzaları toplamağı öz üzərimizə götürməyə hazırıq. Açığı, təklikdə REAL-ın 40 min imza yığacağına inanmıram. Amma başqa partiyaları bu prosesə qoşacaqları təqdirdə 40 min imza elə də çox deyil. Vaxtilə biz partiyamızın qeydiyyatı ilə bağlı 250 min imza toplamışıq. Üç qanun layihəsinin biri tələbələrin təhsil haqları ilə bağlıdır. Azərbaycanda yüz min tələbə var. Belə çıxır ki, bu tələbələr etiraz edəcəklər? Yaxud onların valideynləri bunu istəməyəcəklər? Layihələr xalqın maraqlarına cavab verdiyi üçün imzaların toplanmasının çətin olmayacağını düşünürəm. Sadəcə, burada əsas olan bu məsələnin siyasiləşməməsi və REAL-ın bu məsələdən siyasi dividentlər götürmək istəyinin olmamasıdır. Çünki kimsə görəcək ki, REAL buradan siyasi dividentlər götürmək istəyindədir, o zaman nə partiyalar, nə də vətəndaşlar onlara yaxın duracaqlar".

**AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"a məsələ ilə bağlı bunları dedi:** "Bizə AĞ Partiya olaraq hələ ki heç kim bu mövzuda dəstəklə bağlı müraciət etməyib. Belə bir müraciət olarsa, partiyanın İdarə Heyətində müzakirə olunaraq yekun qərar veriləcək. Biz AĞ Partiya olaraq növbədənkənar prezident seçkilərində iştirak etmiş bir təşkilat kimi bu prosesin nə qədər ağır və məsuliyyətli olduğunu gözəl başa düşürük. Ümid edirəm ki, REAL da qərar verərkən bu faktı nəzərə alıb. Əks təqdirdə, indiki məqamda bu prosesi yekunlaşdırmaq onlara çətin başa gələcək. Ümumiyyətlə isə mən məhz qoyulan bu qanun təşəbbüslərini və bu təşəbbüsün həyata keçirilməsi metodunu indiki məqamda səmərəli və praktik hesab etmirəm. Ancaq təbii ki, bu mənim mövqeyimdir. Hər partiya və siyasi təşkilat özü öz qərarlarını verir və bu qərarlardan irəli gələn nəticələrin altını da özləri çəkir. Odur ki, mən kiminsə atdığı addımları təftiş etməyin tərəfdarı deyiləm. İşlərində uğurlar arzulayıram".

**VİP sədri Əli Əliyev:** "Müraciət edərlərsə, müzakirə edərik. Danışmaqlarından belə başa düşürəm ki, dəstəyə ehtiyacları yoxdur. Təşəbbüs kimi pis deyil. İqtidarın istəyindən asılıdır. Şişirtmək istəsələr, belə fikirləri varsa, imzaları həqiqi sayıb, prosedurları işə salacaqlar. Əks halda, kənara qoyacaqlar, bunlar da bir az PR quracaqlar, vəssalam. Mahiyyət etibarilə bu, prezident seçkilərindən heç nə ilə fərqlənmir, prosedurlar baxımından, fikrimcə, status-kvonu dəyişməyə baş vurulmalıdır. Nə qədər ki, mövcud güc dəngəsi var, iqtidar özünə sərf edəni edəcək. Hər halda, bu vaxta qədər belə olub. Amma qərar hüququ hər tərəfin öz əlindədir. Onlar bu tərəfdən başlamağı hesab ediblər, öz işləridir. Allah iş avandlığı versin. Bir misal çəkmək də yerinə düşər. Ötən tərkibdə Ədalət Partiyasının sədri İlyas İsmayılov eyni vaxtda icra və qanunverici hakimiyyətdə olmağın konstitusiya pozuntusu olmasını ölkəyə bəyan etdi, məhkəmə instansiyalarını keçdi. Nə oldu?"

**KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu REAL-ın qaldırdığı məsələlərin cəmiyyətin əsas problemlərindən biri olduğunu söylədi:** "REAL siyasi partiya olaraq təşəbbüs göstərib. Onların müraciətlərindən sonra məsələyə münasibət bildirmək olar. Müraciət etsələr, partiyamızda məsələ müzakirə ediləcək və ondan sonra yekun qərar vermək mümkün olar. Dəstək lazım olarsa, dəstək verilər, olmazsa ona uyğun addım atılar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) liderlərinin Qazaxıstanda keçirilən sammitində Ermənistanın öz istəyini reallaşdıra bilməməsi seçkiqabağı "iynə üstündə oturan" Nikol Paşinyan hakimiyyətini çətin duruma salıb.**






# Ermənistanın Astana məğlubiyyəti - Azərbaycan üçün şans pəncərəsi

## İşğalçı ölkənin "Rus NATO-su" rəhbərliyindən "nakam" uzaqlaşması İrəvanda əsas müzakirə mövzusudur; erməni baş nazir əvəzi seçkiqabağı xalqın diqqətini yayındırmaq üçün yenidən sərt ritorikaya üstünlük verir...

Astana toplantısı ərəfəsində İrəvanda ümid var idi ki, Rusiyanın dəstəyi nəticəsində keçmiş baş katib Yuri Xaçaturovun əvəzində başqa bir erməni hərbçini KTMT rəhbərliyində oturtmaq mümkün olacaq. Paşinyan xal toplamaq üçün Astanada "zəfər" qazanmağı çox istəyirdi.

KTMT-nin baş katibi postuna namizədlik haqqında qərar dekabrın 6-da Sankt-Peterburqda qəbul ediləcək. Sammitin nəticəsinə görə, növbəti baş katib Belarusun nümayəndəsi təyin ediləcək. Qərb və Rusiya arasında oyunlar oynayan, faktiki olaraq "haça-paça" vəziyyətində qalan mövcud hökumət Rusiyadan gələn xəbərdarlıqlara məhəl qoymamasının cavabını aldı. Bu isə dekabrın 9-da keçiriləcək növbədənkənar parlament seçkiləri ərəfəsində çox ciddi zərbədir. Üstəlik, keçmiş prezident Serj Sərkisyanın rəhbərlik etdiyi Ermənistan Respublika Partiyasının rəhbərliyinə sabiq müdafiə naziri Viqen Sərkisyanın gətirilməsi və onun rəhbərliyi ilə namizədlərin siyahısının hazırlanması Paşinyana sərt mesajdır. Orduda dayaqları olan bu şəxslərin revanş əldə etməsi mövcud hökumətin parlament çoxluğunu qazanmasına əngəl ola bilər. O da istisna deyil ki, Ermənistan daxilindəki qüvvələri hərəkətə gətirən qüvvə ölkə xaricindədir. Bu məqamda KTMT-dən aldığı zərbə Paşinyanın reputasiyasına da ciddi zərbədir. Hələlik baş katibin kimliyi konkretləşdirilməyib. Lakin onun Belarus təmsilçisi olacağı şübhə doğurmur.

KTMT-dəki uğursuzluqlardan sonra Ermənistanda Belarusla bağlı müzakirələr xeyli çoxalıb. Mövcud hökumət uğursuzluğunu ört-basdır etməkdən ötrü mətbuata dezolar ötürür. Belə ki, bəzi erməni saytları yazıb ki, KTMT-də Azərbaycanın müşahidəçi kimi iştirakına "Paşinyanın vetosu" mane olub. Ancaq bəllidir ki, bu, kökündən yanlış iddiadır. Azərbaycan hələ ki bununla bağlı istəyini bəyan etməyib. Ermənistan mediasının müzakirəyə çıxartdığı digər məsələlər isə Azərbaycanın Belarusdan aldığı və "İsgəndər" raketlərini "susdurmaq" gücündə olan "Polonez"lərdir. Düşmən Belarus-Azərbaycan əlaqələrindən açıq şəkildə rəncidə olub. Üstəlik, belə bir durumda Azərbaycan prezidenti İlham Əliyevin Minskə səfərə hazırlaşması işğalçı ölkənin yuxusunu qaçıran məlumatdır. Belarus mətbuatının yazdığına görə, Azərbaycan prezidenti bir həftə sonra Belarusa səfər edəcək. Bu barədə prezident Aleksandr Lukaşenko ilə Azərbaycanın bu ölkədəki səfiri Lətif Qəndilovun görüşü zamanı məlumat verilib.

**Lukaşenko söhbət zamanı diplomatla görüşünün əsas səbəbinin Azərbaycan dövlət başçısının səfəri ilə əlaqəli olduğunu vurğulayıb:** "Bizim danışılası çoxlu mövzumuz var". Erməni mediası Lukaşenkonun "Azərbaycan üçün bizim qapılarımız açıqdır. Bizim İlham Əliyevlə razılaşmamız müqəddəsdir və razılığa gəlmişik ki, onlara əməl edəcəyik. Belarusla Azərbaycanın qapalı mövzusu yoxdur" sözlərini tirajlamaqla narahatlıqlarını büruzə veriblər.

Virtualaz.org Belarus rəsmi KİV-lərinə istinadən xəbər verir ki, görüşdə Lukaşenko Azərbaycanın Minskdəki səfiri Lətif Qəndilovla görüşündə ötən həftə keçirilən KTMT sammitindən danışıb. Bildirib ki, mətbuatda yazılanların əksinə olaraq Astana sammitində KTMT baş katibinin təyinatı məsələsi heç də əsas müzakirə mövzusu olmayıb. Lukaşenko deyib ki, onu həmin görüşdə müzakirə edilən əsas məsələlər barədə bəzi uydurmalar təəcübləndirir. "Hər şeyi buna yönəldirlər ki, guya biz KTMT-nin gələcək rəhbərinin namizədliyini müzakirə etmişik. Bəli, biz bu məsələni müzakirə etmişik, amma məsələ bizim təxminən 15 dəqiqəmizi alıb" - Belarus prezidenti deyib. Lukaşenko Azərbaycan səfirinə onu da deyib ki, Minsk KTMT baş katibi vəzifəsinə üç namizəd təklif etməyə hazırdır. O, Belarusun Ermənistandan sonra əlifba sırası ilə KTMT-də ikinci ölkə olduğunu xatırladıb və deyib ki, Minsk kimisə bu posta irəli sürməyə hazır olmalıdır. "KTMT aparatının rəhbərinin təyinatına gəldikdə...Təbii ki, variantlar çox idi, amma bu, o demək deyil ki, biz Ermənistanın maraqlarını tapdamışıq, orada kimsə udub, kimsə uduzub" - Lukaşenko belə deyib.

Bu, İrəvana tutarlı cavabdır. Yeri gəlmişkən, Qazaxıstan və Belarus liderləri aprel döyüşlərindən sonra İrəvanın ev sahibliyi ilə keçirilən KTMT toplantısına qatılmamaqla da işğalçı ölkəyə dərs vermişdilər, həmçinin Azərbaycanın yanında olduqlarını isbatlamışdılar.

**Qeyd edək ki, ermənişünas alim, politoloq Qafar Çaxmaqlı bundan əvvəl "Yeni Müsavat"a açıqlamasında Ermənistanın Astanada uğursuzluğa düçar olacağı barədə proqnoz vermişdi. Qəzetimizə bu barədə danışarkən ekspert özü də bildirdi ki, Ermənistanın korrupsiyaya uğramış nümayəndəsini yenisi əvəz edə bilməzdi:** "Gözləntilərimiz özünü doğrultdu. KTMT nizamnaməsinə görə, qurumun baş katibi əlifba sırası ilə təyin olunur, ilk imkan Ermənistana verilmişdi. General Xaçaturov faktiki olaraq quldur olduğundan bu qurumdan biabırçı şəkildə çıxarıldı və bu, Azərbaycanın daha öncələr KTMT-yə müşahidəçi sifəti ilə qatılmasına imkan yaratdı. Ermənistan buna etiraz edirdi, bu quldurdan sonra onların sözü keçmədi".

**Q.Çaxmaqlı Azərbaycanın KTMT-də hansısa şəkildə iştirak etməsi perspektivinə də toxundu:** "Zənnimcə, Azərbaycan bölgədə gedən bütün proseslərdən ən azından xəbərdar olmaq üçün bütün beynəlxalq və regional qurumlarda iştirak etməlidir. Çünki bizim həll etmək istədiyimiz məsələ bu qurumlarda bu və başqa şəkildə müzakirə predmeti olur. Biz özümüzü bu proseslərdən təcrid etsək, müdaxilə imkanlarımızı məhdudlaşdıra bilərik. Rusiya əslində cızığından çıxmaq istəyən Ermənistanı ram etmək üçün manevr edir. Qoy olsun. Amma bu, bizim xeyrimizə işləyəcəksə, nədən bundan imtina edək? Mən, əlbəttə, KTMT-yə üzv olmağın tərəfdarı deyiləm. Bu qurumun başını imperiya təfəkkürlü bir ölkə çəkir, buraya üzv olan ölkələri də özündən asılı vəziyyətə gətirib, orada işğalçı Ermənistan var, onunla bir sırada olmaq milli maraqlarımızı çeynəmək demək olardı. Amma bununla belə, müşahidəçi statusunda iştirak edə bilərik və bu da reallaşıb. Sabah Ermənistanla hər hansı hərbi münaqişə zamanı səs hüququmuz olmasa da, bu qurumun içində bir çox məsələlərə müdaxilə imkanlarımız ola bilər. Azərbaycan eyni zamanda başqa hərbi alyanslarda da müəyyən statuslarla iştirak etməlidir, var olduğunu bildirməlidir".

**Bəs Azərbaycanın KTMT-də olması Qarabağ məsələsi üçün nə vəd edir? Q.Çaxmaqlı:** "Proseslərin içində olmaq o demək deyil ki, dərhal həmin problemləri həll edə bilərik. Amma məsələnin həm sülh yolu ilə, həm də hərbi yolla həlli variantlarında bu, bizə bəzi şanslar verir. Mən yenə o fikirdə deyiləm ki, biz KTMT üzvü olaq. Üzv olsaq, əl-qolumuz bağlanar. Belə yaxşıdır. Həm də Rusiyanın istəyinə uyğundur və bizi bəzi təhlükələrdən də qoruya bilər. Onu da nəzərə almalıyıq ki, bu qurumda Qazaxıstan, Qırğızıstan, Belarus var, onlar isə Azərbaycanın torpaqlarının işğal edildiyini dilə gətirirlər".

Bu arada hətta öz müttəfiqlərindən zərbə alan Ermənistan rəhbərliyi uğursuzluğunu arxa plana keçirməkdən ötrü Düşənbə anlaşmasını unudaraq yenidən sərt ritorikaya üstünlük verib. Belə ki, Nikol Paşinyan Paris forumundakı çıxışı zamanı Qarabağla bağlı absurd iddialar səsləndirib, "öz müqəddəratını təyinetmə" haqqından dəm vurub. Artıq Bakıdan ona reaksiya verilib...

Azərbaycan həm prezident, həm də XİN rəhbəri səviyyəsində hələ ki Ermənistan rəhbərliyinə tövsiyələr verir, ona özünü və ölkəsini fəlakətlərə sürükləməməyi məsləhət görür. Paşinyanın bu tövsiyələrə nə dərəcədə əməl edəcəyini tezliklə görəcəyik...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

**Manatın məzənnəsindəki sabitliyə baxmayaraq, Azərbaycanda müxtəlif məhsulların qiymətlərində bahalaşma dayanmayıb. Ötən ilin ortalarından bəri dollar-manat nisbətində ciddi bir dəyişiklik qeydə alınmayıb, avro-manat nisbətində isə milli valyutamızın xeyrinə möhkəmlənmə baş verib. Buna rəğmən ölkədə bütün əsas məhsullar üzrə bahalaşma prosesi getməkdədir.**

# Qonşu ölkələrdən su qiymətinə alınan mallar Azərbaycanda niyə bahadır?

## Vahid Əhmədov: "Bu məsələdə əsas amillərdən biri Rəqabət Məcəlləsinin hələ də qəbul olunmamasıdır"

Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bu ilin yanvar-oktyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 2,4 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,1 faiz, qeyri-ərzaq mallarının qiymətləri 2,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,6 faiz bahalaşıb.

Bu ilin oktyabr ayında sentyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,2 faiz, o cümlədən ərzaq məhsullarının və qeyri-ərzaq mallarının qiymətləri 0,2faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,1 faiz bahalaşıb.

Ay ərzində bütün əsas ərzaq məhsulları üzrə bahalaşma qeydə alınıb - un, makaron məmulatları, mal, qoyun və toyuq əti, kolbasa məmulatları, balıq məhsulları, süd məhsulları, pendir və yumurta, marqarin və zeytun yağları, banan, pomidor, badımcan, yerkökün, çuğundur, kartof, qəhvə, çay və kakao, tütün məmulatları və spirtli içkilər. Ucuzlaşma isə manna və qarabaşaq yarması, limon, naringi, alma, armud, heyva, nar, xurma, göyərti, xiyar, göy lobya, kələm, sarımsaq, soğanın qiymətlərində müşahidə olunub. Komitə deyir ki, digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.



Ay ərzində qeyri-ərzaq mallarından parçalar, geyim, ayaqqabılar, inşaat materialları, kiçik elektrik cihazları, minik avtomobilləri üçün ehtiyat hissələri, fərdi və planşet tipli kompüterlər, dəftərxana ləvazimatlarının qiymətlərində bahalaşma, paltaryuyan maşınlar, kondisionerlər, tozsoranlar, mobil telefonlar, fotoaparatların qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Oktyabr ayında sentyabr ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən hava nəqliyyatı ilə MDB ölkələri istisna olmaqla, digər ölkələrə sərnişindaşıma, avtomobillərin təmiri, bərbərxana və kosmetoloji xidmətlərin qiymətləri, mənzillərin icarə haqqı, kompüter kurslarında təhsil haqqı bahalaşıb, dəmir yolu və hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin qiymətləri isə ucuzlaşıb. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Göründüyü kimi, rəsmi statistika orqanı ölkədə bahalaşmanın olduğunu qeydə alıb. Özü də elə bir vaxtda ki, əsas ərzaq və qeyri-ərzaq məhsullarını idxal etdiyimiz qonşu ölkələrdə - Rusiya, İran və Türkiyədə milli valyutalar ciddi dəyərsizləşməyə məruz qalıblar. Bir çox ekspertlər bu dəyərsizləşmə fonunda idxal mallarının yerli məhsullardan daha ucuz başa gəlməsi nəticəsində yerli istehsalın ciddi təzyiqlərə məruz qalacağını proqnozlaşdırsalar da, Rusiya, Türkiyə və İrandan belə demək mümkünsə, su qiymətinə alınıb gətirilən məhsullar nəinki ucuzlaşmır, əksinə, getdikcə də bahalaşır. Rusiyadan gətirilən taxıl, buğdadan əldə edilən çörəkdən tutmuş Türkiyədən gətirilən bitki yağlarınadək - bütün məhsullar üzrə bahalaşma qeydə alınmaqdadır.

**Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədova görə, bu vəziyyətə təsir edən subyektiv səbəblər var. Onun fikrincə, inhisar buna öz neqativ təsirini göstərir. Mətbuata açıqlama verən millət vəkili bu məsələdə əsas amillərdən biri kimi Rəqabət Məcəlləsinin hələ də qəbul olunmamasını göstərir:** "Neçə vaxtdır ki, bu məcəllənin qəbul olunması barədə danışırıq. Cənab prezidentin imzaladığı yol xəritələrində də bu barədə deyilir, amma orada tarix kimi 2018-20-ci illər göstərilir".

**V.Əhmədov hesab edir ki, bahalaşma başa düşülən deyil:** "Əksər idxal malları Türkiyə, İran, və Rusiyadan gətirilir. Bu ölkələrdə milli valyutalar dəyər itirdiyi üçün idxal ucuzlaşır, Azərbaycan da şükür, qıtlıq yaşamır. Dediyim kimi, bu bahalıq müəyyən adamların spekulyativ sövdələşmələrinin nəticəsi kimi ortaya çıxır".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, monopolizmlə yanaşı, bahalaşmaya səbəb olan digər amillər də var:** "Birinci amil budur ki, nə qədər qəribə görünsə də, gömrükdə rəsmiləşmə artıb. Gömrükdə rəsmiləşmənin artması gömrükdən büdcəyə daxilolmalardan da hiss olunur - keçən ilə nisbətən 1 milyard manat artıq daxilolma qeydə alınıb. Rəsmiləşmənin artması isə gətirilən məhsulların qiymətinə təsir göstərir, yəni artırır. Digər mühüm amil isə idxalçı sahibkarların risk marjını da gətirdikləri malların üzərinə əlavə etmələridir. Gələcəkdə idxal ölkəsində milli valyutaların oynaqlığı riskini Azərbaycan alıcısından çıxırlar. Yəni gələcəkdə lirə, rubl bahalaşarsa, üzləşə biləcəkləri itkini indidən Azərbaycan alıcısının üzərinə qoyurlar".

**Ekspert bildirir ki, inhisarçılığı da nəzərə aldıqda, qiymətlərin aşağı düşməsinə mane olan səbəblər aydın olur:** "Əslində qiymətlər azı 10-15 faiz aşağı düşməli idi. Lakin qeyd etdiyim faktorlar buna imkan vermir".

❑ **DÜNYA,**
**Musavat.com**

# Yumurta qıtlığının səbəbləri

## Quşçular Cəmiyyətinin sədri problemin aradan qalxdığını bildirir, amma…

**Oktyabr ayında başlanan yumurta qıtlığı və bahalığı davam edir. Hələ də marketlərdə broyler yumurtasının biri 19-20 qəpiyə satılır. Kənd yumurtası isə 30-35 qəpik arasında dəyişir.**

Qeyd edək ki, yumurta "böhranı" yeni başlananda Azərbaycan Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyev mətbuata açıqlama verərək problemin yaxın 10 gündə aradan qalxacağını bildirmişdi. Lakin artıq 3 həftəyə yaxın vaxt keçsə də, yumurtanın qiymətində azalma, məhsulun özünün bolluğu müşahidə olunmur.



**Maraqlıdır ki, A.Vəliyev yumurta ilə bağlı problemin tam aradan qalxdığını deyir:** "Quşçuluq fabrikləri yumurtanın maya dəyərinin üstünə 2-3 qəpik qoyurlar. Son altı ayda istehsalçılar qiyməti artırmayıblar. Kəndlərdəki istehsalın bizə aidiyyəti yoxdur. Soyuqlar düşən kimi açıq havada saxlanan kənd toyuqlarının hamısı yumurtadan kəsildi. Bir qismi isə soyuq havadan xəstələnib tələf oldular. Buna görə də indi kənd yumurtası azdır, olanların da qiyməti bahalaşıb. Kənd yumurtasının azlığı bizə ağırlıq düşməsinə səbəb oldu. Üstəlik, tələbələr tətildən qayıtdılar, Bakıda tələbat da artdı. Amma artıq hər şey yoluna qoyulub. Gənc fərələr də yumurtlamağa başlayıb, bütün ölkənin tələbatı tam təmin olunur. Təchizat 30-40 faiz artıb".

**A.Vəliyev birmənalı şəkildə bildirir ki, qiymətlər də aşağı enib:** "Bəzi mağazalar qiyməti qaldırmışdılar, amma indi endiriblər. Bu gün marketlərə gedin, yumurtanın qiyməti 16 qəpikdir".

**Onu da qeyd edək ki, bəzi mənbələr yumurta qıtlığının bir neçə ay əvvəl broyler fabriklərinin bir çoxunda yumurtlayan toyuqlar arasında kütləvi xəstəlik yayılması ilə bağlı olduğunu bildirirlər. Yayılan məlumata görə, bu xəstəlik nəticəsində minlərlə baş toyuq tələf olub, qalanları da xəstəlik qorxusu ilə kəsimə verilib. Birlik sədri bu məlumatın həqiqətə uyğun olmadığını deyir:** "Bizim fabriklərdə hər hansı xəstəlik, tələfat qeydə alınmayıb. Tələfat kənd yerlərində açıq havada saxlanan toyuqlar arasında olub. Bizim fabriklərdə toyuqlar qapalı mühitdə, tam mühafizə olunmuş şəraitdə saxlanılır. Hər hansı xəstəlik halı olmayıb".

Onu da qeyd edək ki, 2016-cı ildən yumurta idxalına əlavə rüsum tətbiq olunması nəticəsində kənardan Azərbaycana bu məhsulun gətirilməsi sıfıra düşüb. Yerli istehsal isə bu il ərzində azalıb. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-sentyabr aylarında ölkə üzrə yumurta istehsalı 0,6 faiz azalaraq 1 295,9 milyon ədəd təşkil edib. Həmin dövrdə quşçuluq fabriklərində diri çəkidə 57,3 min ton (keçən il 57,4 min ton) quş əti və 494,1 milyon ədəd (keçən il 568,4 milyon ədəd) yumurta istehsal olunub.

İstehsalın azalması ilə yanaşı ölkədən kənara yumurta ixracında kəskin artım qeydə alınıb. Belə ki, əgər ötən il Azərbaycandan 9 milyon 194.4 min ədəd quş yumurtası ixrac olunmuşdusa, bu ilin ilk 6 ayında bu rəqəm 41 milyon 049 min ədədə çatıb. Hökumət iyun ayından bəri quş yumurtasının ixracını ixrac təşviqinə daxil edib.

Yeri gəlmişkən, A.Vəliyevin açıqlamasından sonra bir daha redaksiyamızın yaxınlığında yerləşən marketlərdən yumurtanın qiyməti ilə maraqlandıq. Satıcıların dediklərindən aydın oldu ki, yumurta onlara istədikləri həcmdə deyil, məhdud sayda verilir. Üstəlik, qiymətlər də 19-20 qəpikdir...

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# İran sanksiyaları: kim daha çox itirir?

## Sanksiyalar İranla yanaşı, Avropa və Amerika şirkətlərinə də zərbə vurur

**ABŞ-ın İrana qarşı sanksiyalarının ikinci dalğasının başlamasından bir həftə ötür. Noyabrın 5-dən etibarən Vaşinqtonun İrana qarşı sanksiyalarının ikinci və daha ağır dalğası işə düşüb. ABŞ Maliyyə Nazirliyinin açıqladığı sanksiya paketində ümumilikdə 700 şirkət və şəxsin adı keçir. Bunların sırasında iri şirkətlər, banklar, fiziki şəxslər, eləcə də təyyarə və gəmilər də var.**

Bunların 300-ü İran vətəndaşı, nəqliyyat və enerji sahəsində fəaliyyət göstərən 100-dən artıq şirkət, 200-dən çoxu gəmi, 50 İran bankı da daxil olmaqla 70 maliyyə qurumu və nəhayət, İran Hava Yollarına məxsus 67 təyyarədir.

Ancaq Vaşinqton İran neftinin bazardan tamamilə çıxacağı təqdirdə dünyada neft qıtlığı və bahalaşma təhlükəsini nəzərə alaraq özünün yaxın müttəfiqi Yaponiya, Cənubi Koreya da daxil olmaqla 8 ölkəyə 6 aylıq müddətində embarqolardan yayınma güzəşti edib. Çünki Vaşinqton bazarda neftin qəfil bahalaşması təhlükəsindən ciddi narahatdır. İran neftinin bazardan çıxması son zamanlar Yaxın Şərqdə artan gərginliyin fonunda neft qiymətlərinə kəskin təsir edə, hətta bir barel 100 dollar səviyyəsinə yüksələ bilər. Bu isə ilk növbədə Vaşinqton üçün ağır zərbə ola bilər.

Rəsmi Tehran isə embarqoların ölkə iqtisadiyyatına ağır zərbə vuracağını danmasa da, neft satışını azaltmayacağını bildirir. İranın birinci vitse-prezidenti İshaq Cahangiri bildirib ki, Tehranın neft satışı ilə bağlı xüsusi planları var, hökumət embarqonun təsirini minimuma endirməyə çalışır. Təbii ki, söhbət gizli neft satışı və embarqoya qatılmayan, ya da azad edilən ölkələrə satılan neftin həcminin artırılmasından gedir.

Yeri gəlmişkən, ötən həftə ABŞ prezidenti özü də etiraf edib ki, İrana qarşı neft embarqoları nəticəsində qiymətlərin artmaması üçün "yavaş hərəkət edəcəklər". Söhbət neft hasilatının azalmaması üçün güzəştlərdən və istisnalardan gedir.

Bu arada İran ordusu bəyan edib ki, ölkənin neft tankerlərinə qarşı hər hansı təhdid olarsa, güc tətbiq etməklə onları qoruyacaqlar. İran ordusu sözçüsü Mahmud Musəvi deyib ki, hərbi dəniz qüvvələri hazırlıqlıdır, tankerlərə qarşı təhdid olarsa, hərbi güc tətbiq edəcəklər. Söhbət sanksiyalara daxil edilən İran gəmilərinin neft daşıdığı üçün müsadirə olunması riskindən gedir.

Yeri gəlmişkən, ötən həftə İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə "Yeni Müsavat" qəzetinə verdiyi müsahibədə Tehranın embarqoya hazırlaşdığını, hökumətin embarqonun təsirini azaltmaq üçün xüsusi planlarının olduğunu bildirib.



Ancaq indi dünya ABŞ sanksiyalarının əks reaksiyasından danışır. Söhbət ondan gedir ki, ABŞ-ın İrana və Rusiyaya sanksiyaları təkcə bu iki ölkəyə deyil, digər ölkələrə də zərbə vurur. Dünyanın nəhəng şirkətləri, ölkələr İran və Rusiya kimi böyük bazardan məhrum olur, eləcə də neft-qaz satıcısı ilə əməkdaşlıqdan məhrum olurlar. Bu isə son nəticədə Rusiya və İranla yanaşı bu ölkələrə də zərər vurur. Məsələn, 2015-ci ildə İranla "altılıq" ölkələri arasında anlaşmadan dərhal sonra 100-dən çox Almaniya şirkəti, bir o qədər də Fransa şirkəti, ən böyük neft şirkətlərindən olan "Total", aviasiya nəhəngi "Airbus" kimi şirkətlər İranla milyard dollarlıq müqavilələr imzaladılar. Ancaq bu ilin mayında Tramp İranla müqaviləni ləğv etdikdən sonra Avropa və Amerika şirkətlərini təhdid edərək İranla əməkdaşlıqdan çəkilməyə məcbur edib. Nəticədə bu şirkətlər İranla anlaşmaları ləğv edərək ölkəni tərk etdilər. Yeni sanksiyalardan itirən təkcə İran və ya Rusiya deyil, həm də qarşı tərəf şirkətlərdir. Və bu məsələnin ən pis tərəfi ondadır ki. ABŞ-ın hazırkı rəhbərliyi daha əvvəl olduğu kimi, bu zərərləri kompensasiya etməyi düşünmür. Bu isə Avropa liderlərini qəzəbləndirir. Lakin hələlik ABŞ-la qarşı-qarşıya gəlmək, onun qərarlarına açıq şəkildə müxalif olmaq hətta Avropa üçün böyük riskdir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# ADP İranın müdafiəsinə qalxdı

## Partiya rəsmi Bakını Tehrana qarşı sanksiyalara qoşulmamağa çağırdı

**Azərbaycan Demokrat Partiyası Azərbaycan hökumətinə İrana qarşı sanksiyalarla bağlı çağırış edib. Partiyanın noyabrın 12-də keçirilən İdarə Heyətinin toplantısında günün aktual məsələləri, o cümlədən İrana qarşı ABŞ-ın sanksiyaları mövzusu müzakirə edilib. İdarə Heyəti ABŞ-ın İran İslam Respublikasına qarşı tətbiq etdiyi iqtisadi sanksiyalardan və bu sanksiyaların adıçəkilən dövlətlə iqtisadi əlaqələri davam etdirən başqa ölkələrə də şamil edilməsindən narahat olduğunu bildirib və hakimiyyəti yaxın qonşuluq əlaqələrinin, tarixi, dini, mədəni bağlılığımızın olduğu, ərazisində 40 milyona qədər soydaşlarımızın yaşadığı İrana qarşı tətbiq edilən iqtisadi embarqolara qoşulmamağa, ölkələrimiz arasında əməkdaşlığa, dostluğa söykənən ikitərəfli münasibətləri qorumağa çağırıb.**

ADP Norveç səfirliyinin Azərbaycandakı fəaliyyətinin dayandırılması və bundan sonra öz işini Gürcüstanda davam etdirməsi barədə qərarından təəssüfləndiyini də bəyan edib.

İdarə Heyəti son vaxtlar ABŞ diplomatlarının Qarabağla bağlı verdiyi bəyanatlara, münaqişənin sülh yolu ilə həllinin son mərhələsində, Qarabağ ərazisinə neytral ölkələrin sülhməramlı qüvvələrinin yerləşdirilməsi ilə bağlı fikirlərə də münasibət bildirib. Qeyd olunub ki, bu cür bəyanatlar Azərbaycanın suveren hüquqlarının pozulmasına yönəlmiş fikirlərdir və hər hansı bir ad altında Dağlıq Qarabağda sülhməramlı qüvvələrin yerləşdirilməsi yolverilməzdir. Bildirilib ki, Qarabağ bütövlükdə Azərbaycanın tarixi, əzəli ərazisidir, işğal faktı aradan qalxmadan, BMT-nin məlum qətnamələrinin şərtləri təcavüzkar Ermənistan tərəfindən yerinə yetirilmədən, Azərbaycanın gələcək siyasi taleyinə kölgə salan hər hansı bir sülhməramlı qüvvələrin ərazimizdə yerləşdirilməsindən söhbət gedə bilməz.

ADP son vaxtlar yüksək vəzifə tutan məmurların, eləcə də bir çox sabiq məmurların korrupsiya və rüşvət yolu ilə əldə etdikləri vəsaitləri ölkədən çıxararaq xarici ölkələrdə şəxsi məqsədləri üçün istifadə etməsinin yolverilməz olduğunu qeyd edib və hüquq-mühafizə orqanlarını həmin vəsaitlərin dövlət büdcəsinə qaytarılması, onların haqqında hüquqi tədbirlər görülməsinə yönəlik ciddi addımlar atmağa çağırıb.

İdarə Heyəti həmçinin ölkə prezidentinin şəhid ailələrinə sığorta haqqının ödənilməsi ilə bağlı məlum sərəncamının ləngidilməsindən narahat olduğunu bildirib və hakimiyyəti onlara ayrılan vəsaitin təxirə salınmadan çatdırılmasını nəzarətə götürməyə, birdəfəlik ödəmə ilə yanaşı onların övladlarının pulsuz təhsil alması, mənzillə təmin edilməsi, tibbi xərclərinin dövlət tərəfindən ödənilməsi qayğısına qalmağa çağırıb.

Müxalif partiya son vaxtlar ölkədə bir sıra malların, xüsusilə də zəruri qida və ərzaq mallarının qiymətinin kəskin şəkildə artmasından, bu halın əhalinin böyük əksəriyyətinin yaşayış tərzini pozmasından ciddi narahat olduğunu da bildirib və hökuməti bu zərərli tendensiyaya son qoymaq üçün addımlar atmağa çağırıb.

❑ **E.SEYİDAĞA,**

# İsrailin Qəzzada gecə əməliyyatı

## Xüsusi təyinatlılar Həmasın tunellərə rəhbərlik edən komandiri Nuri Bərəkəti öldürüb və özləri də itki verib

**Bazar günü İsrail ordusu Qəzzada xüsusi əməliyyat keçirib. Xan Yunis məntəqəsinə daxil olan İsrail xüsusi təyinatlıları Həmas komandirlərindən birini ələ keçirməyə çalışıb. Ancaq İsrail ordusunun əməliyyatı ifşa olunub və tərəflər arasında silahlı toqquşma baş verib.**



Nəticədə atışmada zamanı 7 nəfərlik İsrail xüsusi təyinatlı qrupundan bir zabit öldürülüb. Əməliyyat böyüyüb və İsrail ordusu vertolyotları toqquşma gedən bölgəni bombalayıb. Atışma nəticəsində 6 Həmas döyüşçüsü, o cümlədən Şeyx Nur Bərəkət öldürülüb.

Bu arada İsrailin "Kanal-10" televisiyası İsrail ordusunun Qəzzada keçirdiyi əməliyyat zamanı öldürülən xüsusi təyinatlının İsrail ordusunun polkovnik rütbəli zabiti olduğu haqda xəbər yayıb. Xəbərdə o da qeyd olunur ki, öldürülən İsrail ordusu zabiti orduda çox "həssas" bir sahədə xidmət edib. Adı tam açıqlanmayan zabitin İsrail ordusunun elit xüsusi təyinatlı hərbi hissəsinin komandiri olduğu bildirilir.

Artıq İsrailin müdafiə naziri Aviqdor Liberman da zabitin ölümü ilə bağlı açıqlama yayıb. Açıqlamada "Dünən gecə İsrail xalqı böyük bir komandanını itirdi. Onun xidmətləri hələ daha bir neçə il İsrail dövlət təhlükəsizliyində sirr olaraq qalacaq" - qeyd olunur.

Bu isə zabitin bir neçə il adının gizli qalacağını göstərir. Qeyd edək ki, Həmasın hərbi qanadı olan "İzzəddin Qəssam Briqadaları" əsasən Qəzzada fəaliyyət göstərir. Həmasın hərbi qanadının yaydığı məlumatda qeyd olunur ki, ötən gün mülki avtomobildə Xan Yunisin şərqində "Şəhid İsmayıl Əbu Şənnəb" məscidi yaxınlığında Qəzzaya doğru 3 kilometr irəliləyib və burada Qəssam Briqadaları komandirlərindən olan Nur Bərəkəti qətlə yetirib. Bundan xəbər tutan Həmas silahlıları isə sui-qəsd qrupuna hücum edib. Nəticədə baş verən atışmaya daha sonra İsrail aviasiyası müdaxilə edərək sui-qəsdçilərin uzaqlaşmasına çalışıb. Toqquşmada 6 Həmas üzvü ölüb. 7 nəfər isə yaralanıb.

Həmas Nur Bərəkət sui-qəsdi zamanı İsrail ordusunun daha çox itki verdiyini, bir saatdan artıq davam edən atışmada bir İsrail vertolyotunun vurulduğunu bildirib. Həmas ən azı iki israillinin öldüyünü bildirir.

Qeyd edək ki, Şeyx Nuri Bərəkət Həmasın hərbi qanadında gizli hərbi tunellərin qurulmasına cavabdeh komandir olub. İsrail ordusu isə daha əvvəl olduğu kimi, xüsusi əməliyyat qrupu vasitəsilə Nuri Bərəkəti oğurlamaq və onun vasitəsilə Həmasın gizli tunellərini öyrənməyə çalışıb. İlkin məlumata görə, İsrail xüsusi təyinatlıları mülki avtomobildə, bəzi iddialara görə, qadın geyimində olub. Əməliyyat peşəkarcasına hazırlanıb və xüsusi təyinatlılar Bərəkətin olduğu yerə qədər gedib onu yaxalayıblar. Ancaq Həmas komandirini diri ələ keçirmək mümkün olmayıb. Nəticədə baş verən atışmaya İsrail aviasiyası da qarışıb. Baş verən hadisədən sonra Parisdə səfərdə olan baş nazir Benyamin Netanyahu səfər proqramını yarımçıq qoyaraq İsrailə qayıdıb. Bu hadisə Qəzzada onsuz da gərgin olan atmosferi bir qədər də gərginləşdirəcək.

Yeri gəlmişkən, ötən həftə İsrail mediası ABŞ prezidentinin Fələstin münaqişəsinin həlli ilə bağlı yeni planını açıqlayacağı ilə bağlı xəbər yayıb. Hələlik planın detalları məlum olmasa da, mediada fələstinlilərin yeni ərazilərə köçürüləcəyi və Ramallah və ətrafında İordan çayının qərb sahilində Fələstin dövlətinin elan olunması haqqında proqnozlar yer alıb. Əsas mübahisəli məqam isə Qəzzanın taleyi və silahlı müqavimət qruplarının susdurulmasıdır. Ehtimal ki, İsrail ordusu Həmasın tunellərə rəhbərlik edən komandirini məhz bunun üçün ələ keçirmək istəyib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

**Son günlər dünya mediası CNN müxbiri Jim Akostanın şəxsən Tramp tərəfindən təhqir edilməsini və Ağ Evdən qovulmasını müzakirə edir. “Yeni Müsavat” virtualaz.org-a istinadən yazır ki, Tramp bundan əvvəl də jurnalistlərlə kobud davranmışdı və onları Ağ Evə buraxmamağı əmr etmişdi. Habelə, az qala hər gün onun barəsində tənqid yazan KİV-ləri “feyk nyus” adlandırır, Amerika mətbuatının onu tənqid edən qisminə nifrətini büruzə verir. Bu dəfəki insident isə ABŞ-da Konqresə noyabrın 7-də keçirilən aralıq seçkilərdən sonra Trampın keçirdiyi ilk mətbuat konfransında baş verib.**

# Trampdan dünyaya pis nümunə

## Amerika prezidentinin ulduzu media ilə barışmır - səbəblər

**Jim Akosta Trampın son günlər ABŞ sərhədlərinə doğru hərəkət edən minlərlə Cənubi Amerikalı miqrantlara qarşı ordu yeritməsi, onları işğalçılar adlandırmasının səbəbləri ilə maraqlanıb. “Nədən mühacir karvanını işğalçı hesab edirsiniz?” - jurnalist soruşub. Tramp qəzəbli cavab verib:** “Çünki mən onların işğalçı olduqlarını düşünürəm. Biz bu məsələdə fərqli düşünürük. Hətta yeni şirkətlər ABŞ-a gələndə bu insanlara ehtiyacımız da olacaq. Amma qanuni yollarla gəlməlidirlər”.

**J.Akosta prezidentlə polemikaya girib, miqrantların əslində ABŞ sərhədlərindən çox uzaqlarda olduqlarını ona xatırladıb. Tramp isə hiddətlənib:** “ABŞ-ı mən idarə edirəm, sən CNN-i idarə etməklə məşğul ol. Yaxşı işləsəydiniz reytinqiniz də yüksək olardı”.

**Jim Akosta bu dəfə Trampa xüsusi prokurorun Rusiya araşdırması barədə sual verib və prezidenti lap özündən çıxarıb:** “Bu qədər yetər. Mənim bu təhqiqat barədə hər hansı bir narahatlığım yoxdur, çünki həmısı quramadır”.

**Jurnalist sualında israr edib və bu dəfə Tramp kürsüdən enərək ona tərəf şığımaq istəyib, amma dərhal geri dönüb və jurnalisti təhqir edib:** “Sən kobud, qanmazın birisən,



CNN üçün işləməməlisən. Sara Hakkabiyə (Ağ Evin mətbuat katibi), insanlara çox pis davranırsan. CNN yalan xəbər yayır, xalq düşmənisiniz”.

Akosta Trampa cavab verməyə çalışarkən Ağ Ev əməkdaşı onun əlindən mikrofonu almağa cəhd edib. Jurnalist mikrofonu əlindən buraxmayıb, bu dəfə əməkdaş diz çökərək onun çıxışını bitirməsini gözləyib. CNN müxbirindən sonra Trampa sual vermək üçün söz alan başqa jurnalist həmkarını müdafiə etməyə çalışıb. Tramp “Sən də onun gününə düşmək istəyirsən?” deyə ona cavab verib.

**Canlı yayımda baş verən bu hadisələrdən sonra Ağ Ev sözçüsü Sara Hakkabi Sanders bildirib ki, CNN müxbiri onun əlindən mikrofonu almaq istəyən əməkdaşa toxunduğu üçün akkreditasiyası ləğv edilib:** “Tramp mətbuat azadlığına inanır və ona ünvanlanan sərt sualları normal qarşılayır. Ancaq bir jurnalistin işini yerinə yetirən əməkdaşa toxunmasını qətiyyən xoş qarşılaya bilmərik” - o bildirib.

“Yeni Müsavat” xatırladır ki, bu günə qədər Tramp dəfələrlə media ilə kəskin qalmaqallar yaşayıb. Tramp yeganə ABŞ prezidentidir ki, bu ölkənin tarixində seçkilərin taleyini həll edən media nəhənglərinə qarşı açıq savaş açıb və qalib gəlib. Trampa qarşı açılan savaş daha çox media müstəvisindədir və bu prosesin ciddi ictimai dəstək qazanacağı az inandırıcı görünür. ABŞ biznes ölkəsidir. Burada dövlət siyasətini iqtisadi maraqlar tənzimləyir.

Tramp hələ prezidentliyə namizəd olan vaxtlarda “The Washington Post”, “The New York Times” kimi qəzetlər də daxil, ölkənin aparıcı nəşrlərini və nəhəng televiziya kanallarını ona qarşı cəbhələşməkdə suçlayırdı. İş o yerə çatmışdı ki, Trump bir neçə ay boyunca bəzi jurnalistlərin və media qurumlarının özünün seçki kampaniyası tədbirlərində iştirakına qadağa qoymuşdu.

Trampın media ilə bağlı sərt sözləri onun tərəfdarlarını da mitinqlərdə zaman-zaman jurnalistlərə qarşı şüarlar səsləndirməyə həvəsləndirirdu. Hətta oxşar mitinqlərin birində jurnalistin təhlükəsizliyindən ötrü xüsusi xidmət orqanlarının əməkdaşları duruma müdaxilə etməli olmuşdu.

Hələ 2015-ci ildə Trampla jurnalist arasında qalmaqal yaranmışdı. Tramp keçirdiyi mətbuat konfransı zamanı növbəsini gözləməyərək yerindən danışan jurnalisti qovmuşdu.

Amma bir müddət sonra sakitləşən Tramp Xorxe Ramosun “yerindən durararaq çığırmasından” şikayətlənib və onun təkrar konfransa qatılmasına etiraz etmədiyini bildirib.

Geri dönərək Donald Trampa sual vermək hüququndan istifadə edən Xorxe Ramos prezidentliyə namizədin qalib gələrsə, ölkədəki 11 milyon qanunsuz mühaciri dərhal deportasiya edəcəyi ilə bağlı planlarına görə onu sərt tənqid edib.

2016-cı il oktyabrın 13-də isə Tramp twitter hesabı vasitəsilə bəzi jurnalistləri kəskin tənqid edib...

“Əgər Tramp Amerika mediasına görə özünü idarəni itirirsə, bəs dünya liderləri tərəfindən ona edilən tənqidlərin öhdəsindən necə gələcək?” Bunu isə “The Christian Science Monitorun şərhçisi Piter Qrier seçkilər ərəfəsində yazmışdı. Onun dediyinə görə, əgər təkcə “Ey-bi-si”nin müxbiri ilə fikir mübadiləsinə dözmürsə, Vladimir Putinə necə qarşı çıxacaq?

İki il öncə mətbuat konfransında Donald Tramp veteran təşkilatlarına xeyriyyə yardımı etmədiyi iddiası ilə jurnalistlərin tənqidinə məruz qalmışdı. O, reportyorlardan birini “yaramaz” adlandıraraq, onun səxavətini etiraf etməməkdə ittiham etmişdi. Belə ki, 28 yanvarda Tramp veteranlara kömək məqsədilə 6 milyon dollar yığıldığını, 1 milyon dolları isə öz cibindən bu məqsədlə verdiyini açıqlamışdı. Amma mayın sonunda “The ”Washington Post" xəbər verdi ki, bəzi veteran təşkilatlar həqiqətən də çeklər alıblar. Amma bu, 6 milyon dollar olmayıb. Bundan başqa, Trampın özü bu işə bir sent belə xərcləməyib.

**Mətbuat konfransında incimiş, əsəbi və aqressiv şəkildə barəsində yazılanları yalanlayan Trampın bu reaksiyası isə siyasi şərhçilər tərəfindən ciddi tənqid olunub. Onlar yazılarında Tramp barədə belə yazıblar:** “Ümumilikdə Tramp yaralı insan təəssüratı bağışladı. Amma hesab edək ki, o, haqlı idi. Bəs gələcəkdə hansısa xarici ölkənin lideri onun bu reaksiyalarını görəndən sonra şəxsi məqsədləri naminə ABŞ prezidentini qıcıqlandırmaq, hirslendirmək istəsə necə olacaq? Şəxsi qarşılıqlı münasibətlər geosiyasətdə ciddi əhəmiyyət daşıyır. Prezident onları düzgün qurmalıdır”. Bunu da siyasi analitik Cey Nordlinqer qeyd edib.

Faktiki olaraq Tramp dünyaya pis nümunə göstərir. Demokratiya beşiyi hesab edilən Amerikanın prezidentinin media ilə bur cür yolverilməz davranışı avtoritar ölkələrin məmurlarına, rəhbər şəxslərinə də rəvac yarada bilər.

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**

# Qaşıqçı məsələsi böyüyür - tezliklə yeni faktlar açıqlanacaq

## Jurnalistin ölmədən öncəki səs yazısı üzə çıxdı; “Boğuluram, torbanı başımdan çıxarın”

**Səudiyyə Ərəbistanının İstanbul baş konsulluğunda vəhşicəsinə qətl edilən Camal Qaşıqçının son sözləri ortaya çıxıb. “Yeni Müsavat” Türkiyə mediasına istinadən xəbər verir ki, türk qaynaq Qaşıqçının son sözləri barədə Əl-Cəzirə telekanalına məlumat verib. Mənbə səs yazısında Qaşıqçının səudiyyəli qrupla savaşmasının aydın şəkildə eşidildiyini və son olaraq “Boğuluram, torbanı başımdan çıxarın, klostrofobikəm mən” deyə qışqırdığını bildirib.**

Televiziyaya bu barədə danışan “Daily Sabah”ın əməkdaşı Nazif Karaman bütün səs yazılarının dinlənildiyini iddia edib. Qəzetçi sui-qəsdin və yaşananların bütün detalları ilə səs yazılarında yer aldığını bildirərək bütün bu prosesin 7 dəqiqə davam etdiyini deyib. Prezident Ərdoğan şənbə günü sözügedən səs yazılarının Səudiyyə Ərəbistanı, Amerika, Fransa, Almaniya və İngiltərə ilə paylaşıldığını demişdi. Bundan əlavə, Ərdoğan Səudiyyə Ərəbistanının cinayəti həyata keçirən şəxsin hadisədən bir gün əvvəl İstanbula gələn 15 nəfərlik heyətdən olduğunu bildiyini açıqlamışdı.

Əl-Cəzirəyə danışan jurnalistə görə, Səudiyyə Elmi Ədliyyə Tibb Qurumu rəhbəri Salah al-Tubaigy rəhbərliyindəki heyət Qaşıqçının bədənini parçalamadan öncə yerləri müşəmbələrlə örtüb. Türk yetkililərin cəsədi axtarış prosesində sona doğru yaxınlaşdığı, amma istintaqın davam edəcəyi də verilən məlumatlar arasındadır.

İstintaqı həyata keçirən Cümhuriyyət Baş Prokurorluğundan bir qaynaq da yenə Əl Cəzirə telekanalına verdiyi açıqlamada konsulluq rezidensiyasında cəsədi yox etmək üçün istifadə edildiyinə inanılan kimyəvi turşu izlərinin olduğunu demişdi.

Əl-Cəzirəyə səs yazısındakı məlumatları verən qəzetçi səudiyyəli heyətin ölkəyə gətirdiyi və cinayətdə istifadə edildiyinə inanılan alətlərin şəkillərinin yaxın zamanda yayımlanacağını da deyib. Bundan başqa, Qaşıqçının son anlarına aid bəzi görüntülər də qəzetdə yayımlanacaq.

İstanbul prokuroru keçən ay verdiyi açıqlamada Camal Qaşıqçının konsulluğa girər-girməz boğularaq öldürüldüyünü və meyitinin parçalandığını söyləmişdi.

Səudiyyə Ərəbistanı istintaq çərçivəsində aralarında 5 nəfər rəhbərlikdə təmsil olunan şəxsin olduğunu, 18 nəfərin də həbs olunduğunu açıqlamışdı. Şübhəlilərin Türkiyəyə göndərilməsi və burada istintaqa cəlb olunma istəyini isə Riyad rədd etmişdi.

“Yeni Müsavat” BBC Azərbaycancaya istinadən xəbər verir ki, Türkiyə hüquq-mühafizə orqanları media ilə Camal Qaşıqçının (Jamal Khashoggi) yoxa çıxmasını, ona qəsd olunmasını sübut edən CCTV çəkilişini paylaşıb. Görüntülərdə, iddia edildiyinə görə, Səudiyyə kəşfiyyatının zabitlərinin hadisədən bir gün öncə Türkiyənin İstanbul hava limanına xüsusi heyətlə daxil olması və sonra da ölkəni tərk etməsi təsvir olunub.

O, oktyabrın 2-də İstanbulda Səudiyyə konsulluğuna daxil olduqdan sonra bir daha görünməyib. Türkiyə rəsmiləri onun öldürüldüyünü iddia edib, Səudiyyə bunu inkar edir.

Çərşənbə günü ABŞ prezidenti Donald Tramp deyib ki, bu məsələni sonunadək bilmək istəyir: “Biz imkan verə bilmərik ki, bu, jurnalistlərin və ya kim olursa-olsun, başına belə iş gəlsin”.

O deyib ki, vəziyyət ciddidir



və Qaşıqçının nişanlısı - Hatice Cengizi Ağ Evə dəvət etmək istəyir.

Türkiyənin TRT World kanalının yayınladığı və təhlükəsizlik kameralarından götürüldüyü deyilən kadrlarda konsulluğun qarşına dayanan avtomobillər göstərilib. Onların arasında qara rəngli mikroavtobuslar türkiyəli müstəntiqlərin diqqətini xüsusilə cəlb edib. Videoda bir qrup səudiyyəli kişinin İstanbul aeroportundan Türkiyəyə daxil olduqları, mehmanxanada qeydiyyatdan keçdikləri və sonradan ölkəni tərk etdikləri göstərilib.

Türkiyəli müstəntiqlərin diqqətini oktyabrın 2-də aeroporta enmiş Səudiyyənin iki “Gulfstream” reaktiv təyyarəsi cəlb edib. Videoda təyyarələrin aeroport zolağında gözlədiyi görünür. Nişanlısı Hatice Cengizlə evlənməyə hazırlaşan Qaşıqçı Səudiyyə konsulluğuna əvvəlki nikahını bitirmək üçün boşanma prosesini başa çatdırmaq məqsədilə getmişdi. Videoda onun konsulluğa girdiyi görünür, nişanlısı isə küçədə onu gözləyir.

Türkiyənin “Sabah” qəzeti bildirib ki, çəkilmiş kadrlarda kəşfiyyatın 15 üzvü tanınıb. Türkiyə onların Qaşıqçının yoxa çıxmasında əli olduqlarını güman edir. Onların arasında kriminalistika eksperti də olub.

BBC müxbiri Mark Lovenin bildirdiyinə görə, həmin heyətdən bir nəfər vaxtı ilə Londona da göndərilib. Məlumatlara görə, polis 150 təhlükəsizlik kamerasının çəkilişlərini istintaq çərçivəsində yoxlayır. Bəzi yerli medianın yazdığına görə, cənab Qaşıqçı öldürülməkdənsə oğurlana bilərdi. Türkiyə Səudiyyənin İstanbul konsulluğunda axtarış aparacağını bildirib, Səudiyyə Ərəbistanı Xarici İşlər naziri ölkənin “əməkdaşlıq üçün açıq olduğunu” deyib və bildirib ki, binada axtarış aparıla bilər.

Ankara Səudiyyədən Qaşıqçının binanı tərk etdiyini sübut etməyi tələb edir, eyni zamanda onun binada öldürüldüyünü birmənalı olaraq sübut edən dəlillər təqdim olunmayıb.

Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla görüşən ABŞ xarici işlər naziri Mayk Pompeo isə bildirib ki, C. Qaşıqçının öldürülməsi olayına qarışan hər kəs Amerika tərəfindən məsul tutulacaq.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

**Elan**

**Qavrilkeviç Anna Konstantinovnanın yaşadığı Bakı şəhəri, Nizami rayonu Naxçıvanski küçəsi ev 41, mənzil 63 ünvanının sənədi itdiyi üçün etibarsız sayılır.**

**

**Ağdaş şəhərində yaşayan Məhərrəmov Qalib Arif oğluna məxsus JN 3350A saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 241 (7130) 13 noyabr 2018

# Azərbaycan fotoqrafları ilə ingilis həmkarlarının fərqi...

**Jurnalist Aytən Abbaslı Beynəlxalq Bankın hazırda həbsdə olan rəhbəri Cahangir Hacıyevin milyonları göyə sovuran həyat yoldaşı Zəmirə Hacıyevanın Londondakı evinin qarşısından reportaj hazırlayıb. Jurnalist reportajında İngiltərə fotoqrafları ilə söhbətə də yer verib. O qeyd edib: "Mənimlə birgə pusquda olan ingilis jurnalistlərin günlük məvacibinə gəlincə isə "freelance" olaraq işləyənlər hər gün üçün 60-70 funt alır. Həmin gün foto çəksələr də, çəkə bilməsələr də..."**

## Azərbaycanlı fotoqraf: "Bizdə eksklüziv fotoya maksimum 50 manat qonorar verərlər ki, bu da saatlarla gözləməyə dəymir"



Maraqlıdır, bəs Azərbaycanda bu sahədə çalışan fotoqraflar necə işləyirlər?

**"Yeni Müsavat"a danışan "Report" İnformasiya Agentliyinin fotoqrafı Elçin Murad hesab edir ki, hansısa məsələdə Azərbaycanı Qərblə müqayisə etmək həmişə yerinə düşmür:**

"Eləcə də jurnalistlərin, daha doğrusu, fotojurnalistlərin həyat tərzi və peşə fəaliyyəti. Hər şey cəmiyyətin keçdiyi ümumi inkişaf prosesindən, dəyər anlayışından və buna sərf olunan zamandan asılıdır. Sosial, ictimai şüur bu prosesdə formalaşır. Azərbaycanda bu baxımdan bir çox şeylərin dəqiq sərhədi hələ də bəlli deyil. Ona doğru bir yola girmişik, amma necə və hansı şəraitdə irəliləyirik, bu, zamanla bəlli olacaq. İngiltərədəki məlum olay və eləcə də bunun müqabilində fotojurnalist və ya paparassinin qazancı barədə düşünmək bizim üçün sadəcə, xəyal ola bilər. Bu gün İngiltərədə yaşananlar zamanın yoğurub bişirdiyi çörəkdir. Qısaca onu deyək ki, bizim müstəqilliyimizin 27 yaşı olduğu halda, İngiltərədəki tanınmış nəşrlərin 27 və daha çox yaşı var. Biz hələ dövlətçiliyin mükəmməl formasına can atdığımız halda mətbuatımızı İngiltərə və ya hər hansısa Qərb ölkəsi ilə müqayisə etməmiz məntiqə sığmır. Mükəmməl dəzgah olmadan mükəmməl alətlər düzəltmək olmaz. Şəxsin şəxsi həyatının üç sahədən formalaşması qəbul edilir. Şəxsin ümumi həyat sahəsi - bura cəmiyyətə açıq məlumatlar daxildir. Musiqi, kino, sənət, idman və s. maraqları. Şəxsin özəl həyatı - bura şəxsin dar çərçivədə bölüşdüyü bilgilər daxildir. Həkim, vəkil və s. bu məlumatların üçüncü şəxsin əlinə keçməsi özəl həyatın pozulması kimi qiymətləndirilir. Şəxsin gizli həyat sahəsi - bura isə adından da göründüyü kimi, şəxsin nəinki üçüncü hətta, ikinci şəxsə etibar etmədiyi məlumatlar daxildir. İntim həyatı, qorxuları, planları, xəyalları, dini inancı, və s. düşüncə və davranışları... Azərbaycan jurnalistlərinin peşə davranış qaydalarına görə də jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz. Məhz buna görə də bu gün sözügedən qərbdə paparassilər bir fotoşəkilə görə bizim arzularımıza belə sığmayan qonorarlar alırlar. Məsələn, paparassilər Monako kraliçasının özəl görüntüsünə görə 2 milyon dollar, Papa II İohan Pavelin özəl görüntüsünə görə 1.2 milyon dollar qazanıblar. Bu nümunələr özü özlüyündə sübut edir ki, bu gün müqayisə etmək istədiyimiz Qərbdə paparassilik müstəqil fəaliyyət sahəsi olaraq formalaşıb. Lentə alınan görüntü ictimai marağa səbəb olacaq hadisədirsə, hüquq pozuntusunu ortaya çıxarmanın yeganə yolu gizli kameradan istifadə etməkdirsə, "çəkmə", ya da yayma deyə bilməzsiniz".

**"Freelance" fotoqraf Firi Səlim bildirib ki, Azərbaycanda kimisə izləyib çəkməyə şərait yoxdur:**

"Türkiyədə əsasən şou sahəsinin fotoqrafları bu cür fotolar çəkib, yüksək qonorar alırlar. Azərbaycanda isə belə hal yoxdur. Mən kimisə güdüb, foto çəkməmişəm və bu sahəyə də marağım yoxdur. Bilirəm ki, İngiltərədə çalışan fotoqraflar bizdən qat-qat yüksək qonorar alırlar. Bəlkə də onlar daha rahat, daha peşəkar işləyirlər və daha azaddırlar. Bizdə media İngiltərədə olduğu kimi azad deyil. Maliyyə baxımından vəziyyətim ortadır. Ancaq ümumi götürəndə nə iş şəraitimdən razıyam, nə də qazandığım məbləğdən. Bu isə işlədiyim yerlə əlaqəli deyil. Sadəcə olaraq ölkədə vəziyyət bu cürdür".

Azvision.az saytının fotoqrafı Şahin Sərdarov söyləyib ki, Azərbaycanda fotoqraflar daha çox toylardan qazanırlar:

"Gündəlik tədbirim oldu-olmadı, ayın sonunda eyni maaşı alıram. Azərbaycanda çox qazanan fotoqraflar şou-biznes əhli ilə işləyənlər və toyları çəkənlərdir".

**Beynəlxalq dərəcəli peşəkar fotoqraf Əziz Elxanoğlu söyləyib ki, xarici ölkələrdə çalışan fotoqraflara gündəlik pul ödənilmir:**

"Ştatda olan fotoqrafların konkret maaşları var. Bu, 2-3 min funt edir. Bu fotoqraflara deyilir ki, filan şeyi çək, gəl. Yəni təyinatlarına uyğun olaraq onlara mövzu verilir. Kimlərisə güdüb, çox pul götürməyə çalışanlar ştat fotoqrafları deyil. Onlar daha çox "freelance" fotoqraflardır. Bu adamlar şəkili çəkib, redaksiyaya yüksək qiymətə satırlar. Ştat fotoqraf bunu, sadəcə olaraq, rastına çıxdığı zaman çəkə bilər. Lakin onun vaxtı yoxdur ki, kimsə zaman sərf edib, onu saatlarla güdsün. Azərbaycanda da təxminən vəziyyət bu cürdür. Ölkəmizdə fəaliyyət göstərən fotoqraflar da 600-800 manat maaş alırlar və onların vaxtları yoxdur ki, kimisə saatlarla güdüb, foto çəksinlər. Qanun da İngiltərədə və Azərbaycanda tamam başqadır. Bizdə hər hansı bir adam ictimai yerə çıxıbsa, onu çəkə bilərsən. Küçədə gedən hər hansı bir adamı çəkirsənsə, mütləq icazə almalısan. Eyni zamanda fotonu harada yayımlayacağını da deməlisən. Çünki sən fotodan həm yaxşı, həm də pis məqsədlər üçün istifadə edə bilərsən. Özümə gəlincə, indiyə qədər kimisə güdüb, foto çəkməmişəm. Sadəcə olaraq, qarşıma maraqlı şey çıxıbsa, onu çəkmişəm. Lap çəksəm belə, bizdə heç bir media həmin fotoya yüksək qonorar verə bilməz. Maksimum 50 manat verərlər. Buna da heç kim öz vaxtını sərf etməz. Bu baxımdan bizdə bu cür fəaliyyət yararsızdır. Xaricdə rezonans doğuran fotonu çəkən fotoqraf onu yüksək məbləğə redaksiyaya sata bilir. Çünki redaksiya görür ki, bu şəkillə rezonans yaradacaq və fotoqrafa da istədiyi məbləği verir. Bu baxımdan Londonla Azərbaycan arasında fərq böyükdür".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Plastik əməliyyatlar - ziyanı faydasından daha çoxdur

## "Kompleksdən xilas olmaq istəyərkən uğursuz əməliyyat keçirənlərin sonra yaşadığı fəsadlar daha böyük problemlərə yol açır"

**Estetik əməliyyat etdirənlərin sayı gün keçdikcə artır. Əvvəllər qadınlar daha çox əməliyyatlara üz tutsa da, son illər kişilər də onlardan geri qalmır. Kimi sağlamlığına qovuşmaq, kimi isə gözəl görünmək, komplekslərdən xilas olmaq üçün bu yola əl atır.**



Bəs insanları estetik əməliyyata sövq edən əsas səbəblər nələrdir?

Komplekslərdən xilas olmaq üçün tək çarə əməliyyatlardır? "Yeni Müsavat" mövzu ilə bağlı psixoloq Vəfa Rəşidovanın fikirlərini öyrənib. O bildirib ki, əməliyyatlar bir çox xəstəliklərə səbəb olur: "Plastik və estetik əməliyyatların son zamanlar artmasının səbəbi təqlid, kütləvi baxış forması, 10 nəfərin bir nöqtəyə baxış bucağının nəticəsidir. İnsanlar düşünür ki, xalam qızı, dayım qızı, rəfiqəm edibsə, mən də etməliyəm. Toplum psixologiyası burada böyük rol oynayır. Eyni zamanda sosial şəbəkələrə baxırıq, orada paylaşılan fotolar da insanları əməliyyatlara sövq edir. Gözəl xanımın fotosu paylaşılır, uğurlu burun əməliyyatı keçirmiş bu xanıma baxanlar onun kimi olmaq istəyir. Bundan başqa əməliyyat olunan biri digərinə elə tərifləyir ki, qarşıdakı həvəslənir. Baxımlı olmaq, incə görünmək, model kimi arıqlamaq kimi fikirlər insanlara o qədər aşılanıb ki, xüsusilə xanımlar əməliyyatlara meyl edir. Bəzən isə kompleksdən irəli gələrək insanlar əməliyyatlara üz tutur. Onları ətrafdakı insanlar kompleksə salır. Bir dəfə bir qadın yeniyetmə qızını yanıma gətirmişdi ki, onu burnunu əməliyyat etdirməyə razı salım".

**Həkimin sözlərinə görə, insanlar anlamır ki, əməliyyatdan sonrakı proses daha önəmlidir:** "Bəziləri əməliyyatdan sonra özünü yaxşı hiss edir, əməliyyatı uğurlu keçir. Bəzən isə uğursuz əməliyyatlar olur və ya genetikaya əsasən bədənə bıçaq dəydikdən sonra bədən deformasiyaya uğrayır. Kompleksdən xilas olmaq istəyərkən uğursuz əməliyyat keçirənlərin daha sonra yaşadığı fəsadlar daha böyük problemlərə yol açır. O insanların yaşadığı psixoloji durum onları ya yeni əməliyyata vadar edir, ya da uzun müddət psixoloji dəstək almalı olurlar. Əməliyyatdan sonra insanlarda narsissizm əmələ gəlir, onlar özlərini aşırı dərəcədə sevməyə başlayır, heç kimi bəyənmirlər. Narsissizm insanları yeni əməliyyatlara sövq edir, onlar daha çox gözəlləşmək və dəyişmək istəyir. Narsissizm özü də bir xəstəlikdir. Xudbinlikdən irəli gələn özünə vurğunluq, insanın özünə aşiq olması, öz-özünə səcdə etməsi mənasına gələn ruhi sarsıntı, xəstəlik anlayışıdır. Qədim Yunan əsatirinə görə, Narkiss adlı bir gənc suda öz əksini görür və öz-özünə vurulur. Öz əksinə elə heyran olur ki, yerindən tərpənə bilmir və əriyib, çökür. Narsisizmin bir neçə növü mövcuddur. Ən çox təsadüf olunan növ - Roma sezarları, Misir fironları və diktatorlar kimi şəxslərdə təsadüf edilən növüdür. Bu insanlar öz gözlərində adətən nəfəs alıb yeriyən yer üzü tanrıları kimidirlər. Hətta həyat və ölüm kimi mühüm təbii hadisələrə belə bir cümlə ilə qərar verə bilirdilər. Ən böyük qorxuları güclərini qeyb etmələri, ölüm, ətraflarındakı hər kəsin onlara düşmən olması idi. Güc və şəhvətlərinin bir həddi yox imiş kimi davranmağa çalışırlar, saysız insanı öldürüb, saysız saraylar tikərdilər. Xarici dünya "mən" olmadığı üçün, narsist insan xarici dünyanı anlaya bilməz və bu vəziyyət onda qorxu yaradır. Diktator get-gedə daha zalım, daha tənha və qorxaq olur. Bir sözlə, əməliyyatlar həmişə xoşbəxtlik və rahatlıq gətirmir".

**❑ Könül İBRAHİM,**
**Musavat.com**

# YENİ MÜSAVAT

## Son səhifə

N 241 (7130) 13 noyabr 2018



## Çox pul qazananlar... daha bədbəxt imiş

**Belçikada 4 il davam edən "Beynəlxalq Xoşbəxtlik Araşdırması"na görə, çoxlu miqdarda pul səadət gətirmir. Aylıq gəliri 4 min 500 avrodan artıq olan şəxslər aşağı qazanclı şəxslərlə müqayisədə özlərini daha bədbəxt hiss edirlər.**

Gent Universitetinin sağlamlıq üzrə mütəxəssisi professor Lieven Annemans və heyəti tərəfindən həyata keçirilən araşdırmaya görə, Belçikada orta hesabla aylıq gəlir 1716 avrodur. Cəmiyyətin beşdə biri ayda 1000-1500 avro ilə dolanır. Araşdırmaya görə, 2000-3000 avro aylıq gəlirə sahb olanlar özlərini xoşbəxt hiss edirlər. Ortalamanın altında bir gəlirə sahib olanlar yetərincə xoşbəxt deyil. Amma araşdırmanın ən ağlasığmaz detalı ən çox qazanan insanların özlərini daha çox bədbəxt hiss etməsidir. Aylıq 4 min 500 avro və ondan artıq qazanca sahib olanlar yaşam şərtlərindən daha az məmnundular. Bu kəsim az qazananlarla müqayisədə özlərini daha çox bədbəxt hiss edir.

# Pulun varsa, sosial şəbəkədə izləyicini satın ala bilərsən

**Çində yerləşən "Tık fabriki" müəyyən məbləğ qarşılığında təqibçi və "layk" satışı həyata keçirir. İHA-nın xəbərinə görə, 10 minə yaxın telefonun eyni anda bəyənmə və təqib funksiyasını icra etdiyi "tıklama fabrikində təqibçi sayı saniyələr içində minlərə qədər arta bilər. Çindəki bu fabrikdən çəkilən görüntülərdə bütün sosial media hesabları müəyyən məbləğ qarşılığında bəyənilir və ya təqib edilir. Bununla da kifayətlənməyən fabrik istəyə uyğun olaraq mobil tətbiqetməni bəyənir və bununla da onu axtarış siyahılarında üst sıralara çıxarır. "Tık fabriki"nin müştəriləri arasında məşhurlar da var, böyük texnologiya şirkətləri də. Onlarla işçi bu fabrikdə telefonlara nəzarət edir. İndi isə qiymətlərə keçək. 1000 instaqram təqibçisi 12 dollara, min twitter təqibçisi isə 10 dollara satılır.**




# Məktəb müdiri... hoIoqramla evləndi



**Yaponiyanın paytaxtı Tokioda bir məktəb müdiri olan Akihiko Kondo virtual dünyada 16 yaşındakı bir müğənni olan holoqram Hatsune Miku ilə evlənib. 35 yaşındakı Kondonun 17 min 600 dollara Tokioda təşkil etdiyi evlilik mərasiminə isə anası başda olmaq üzrə heç bir qohumu gəlməyib. Kondo Fransanın xəbər agentliyi AFP-yə verdiyi açıqlamada "bu evliliyin anası üçün çox da qeyd olunacaq bir şey olmadığını" deyib.**

Bir oyuncaq formasında toya gələn "gəlin" Miku ilə Kondonun evlilik mərasiminə təxminən 40 qonaq qatılıb. Kondo 2.800 dollara başa gələn və kompüterində məskunlaşan Miku ilə mart ayından bəri bərabər yaşayır. "Onu heç bir zaman aldatmadım, hər zaman Mikusana aşiq olacam. Hər gün onu düşünürəm" deyən Kondo sıradan bir həyat yaşadığını deyir.

Holoqram "həyat yoldaşının" hər gün onu oyandırdığını və məktəbə göndərdiyini deyir. Hər axşam işdən evə qayıdanda bu barədə Mikuya cib telefonu ilə məlumat verir, buna cavab olaraq Miku evin işıqlarını yandırır. Eyni zamanda Kondonun nə zaman yatağa girib yatmalı olduğunu da yenə Miku deyir. Kondo gecələr Mikunun oyuncaq versiyası ilə bərabər yatır. Sonuncunun barmağında üzük də var. Bu nikah qanuni olaraq keçərli sayılmasa da, bu, Mikuya üzük almaq üçün Kondonun bir zərgər mağazasına getməsinə mane olmayıb. Holoqramın istehsalçısı olan "Gatebox" şirkəti isə bir evlilik sertifikatı təqdim edərək, cütlüyün arasındakı evliliyin "boyutlar arası" olduğunu bildirib. Kondo bu mənada yalnız deyil. "Gatebox" indiyədək bu şəkildə 3 min 700 evlilik sertifikatı ixrac edib.




**QOÇ** - Bir tərəfdən şəxsi büdcənizdə artım, digər tərəfdənsə sürprizlərlə rastlaşmağınız sizə böyük sevinc gətirəcək. Amma bu gün vacib planlarınızı heç kimə söyləməməlisiniz.

**BUĞA** - Bütün enerjinizi fəaliyyətə istiqamətləndirin. Ən azı ona görə ki, bu gündən etibarən şəxsi işlərinizdə əsaslı dönüş mərhələsi başlayacaq. İşgüzar görüşlərdən yayınmayın.

**ƏKİZLƏR** - Ulduzlar olduqca rəvan və mənalı bir tarix yaşayacağınızdan xəbər verir. Qərarlarınızda ədalət prinsiplərinə söykənin. Qonaq getmək üçün bir neçə şans qazanacaqsınız.

**XƏRÇƏNG** - Çox uğurlu vaxtdır. Ətrafınızdakıların sizi anlaması, şəxsi işlərinizdə müsbət dönüşün baş qaldırması sizi fərəhləndirəcək. Nahardan sonra maddi durumunuz yaxşılaşmalıdır.

**ŞİR** - Ötən dövrlərdə yaşadığınız üzüntülü anlarınız artıq arxada qalmaqdadır. Yeni mərhələyə keçid üçünsə əzmkarlığınızı artırmalısınız. Həyata və insanlara münasibətinizi sivilləşdirin.

**QIZ** - Yeni əlaqələr yaratmaq, təkbaşına bacarmadığınız problemləri müştərək şəkildə həll etmək üçün əsl məqamdır. Başlıca vəzifəniz hər bir işə məsuliyyətlə yanaşmaqdan ibarət olmalıdır.

**TƏRƏZİ** - Bu təqvim daha çox maliyyə vəziyyətinizin yaxşılaşması ilə yadda qala bilər. Digər sahələrdə isə müəyyən gərginliklərlə qarşılaşacağınız gözlənilir. Səhhətinizi qoruyun.

**ƏQRƏB** - Səhər saatlarını müəyyən gərginlik içində yaşasanız da, günün ikinci yarısında vəziyyət normallaşacaq. Unutmayın ki, indi digər 11 bürcün "komandanı" sizsiniz. Komandan isə çılğın olmamalıdır.

**OXATAN** - Həmkarlarınızla aranızda mübahisəli vəziyyət gözlənilir. Bacardığınız qədər belə halları yaxına buraxmayın. Bu gün ailə-sevgi münasibətlərində uğurlarınız da mümkündür.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvim sizin üçün daha çox sevincli məqamlarla müşahidə olunacaq. Təzə xəbərlər eşidəcək, yaxşı insanlarla rastlaşacaqsınız. Ailə üzvlərinizə qarşı daha səmimi olun.

**SUTÖKƏN** - Astroloji göstəricilərə inansaq, ağıl işlətsəniz, bu gün ən qazanclı bürc siz olmalısınız. Bütün gücünüzü göstərilən istiqamətə yönəldin. Yorulmaqdan qorxmayın, daxili şübhələrdən qaçın.

**BALIQLAR** - İşlə bağlı bütün məsələlərdə irəliləyişə nail ola biləcəksiniz. Sevgi-ailə münasibətlərində isə xüsusi rahatlıq tapacaqsınız. Axşama yaxın ürəyinizə yaxın şəxslərə baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Gözəl qadınlar və yaraşıqlı kişilər... çox eqoist olurlar



**İngiltərə və İsrail universitetlərinin apardığı birgə araşdırmaya görə, gözəl insanlar darıxdırıcı olur. Türkiyə mətbuatının verdiyi xəbərə görə, tədqiqat qrupunun üzvü olan Lihi Sandel-Kaspi elmi araşdırma barədə jurnalistlərə açıqlama verib: "Gözəl insanlar şəraitə və qayda-qanunlara daha çox bağlı olurlar. Daha az cazibədar insanlar isə azad həyat tərzini seçirlər. Buna görə də gözəl və cazibədar insanlar həyatdan daha az zövq alırlar. Çox gözəl qadın və kişilər başqalarını daha az vecinə alan, daha soyuq və eqoist olurlar".**

Araşdırma nəticəsində bəlli olub ki, gözəl olmayan insanlar gözəl insanlarla müqayisədə daha istiqanlı və mehriban olurlar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100